

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET № 115 (7370) / Şənbə, 29 iyun 2019-cu il


## Prezident İlham Əliyev:

# Biz bundan sonra da islahatlar yolu ilə gedəcəyik

Biz bundan sonra da islahatlar yolu ilə gedəcəyik. Çünki bir daha demək istəyirəm, əldə edilmiş nəticələr, hesab edirəm ki, tarixdə qalmalıdır. Biz bunu bilməliyik ki, haradan gəlmişik, hara çatmışıq. Ancaq bu, tarixdir, biz gələcəyə baxmalıyıq. Bu gün iqtisadi sahədə aparılan islahatlar bütün mötəbər beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, bizim tərəfdaşlarımız Azərbaycana böyük kreditlər verirlər. Nəyə görə? Ona görə ki, bizə inanırlar.



## Azərbaycan Ordusu: ərazi bütövlüyünün bərpası və regional sabitlik uğrunda



⇨ Bax: səh. 2

## "Ənənəvi incəsənət vasitəsilə inklüziv təhsilin təşviqi" layihəsinin təqdimatı olub



⇨ Bax: səh. 4

## Əli Əhmədov Yeni Azərbaycan Partiyasının üzvlərini Azərbaycanın Silahlı Qüvvələrinə Yardım Fonduna dəstək aksiyasına qoşulmağa dəvət edib



⇨ Bax: səh. 3

⇨ Bax: səh. 3



## Akademik Ramiz Mehdiyevin yeni əsərinin Dövlət İdarəçilik Akademiyasında müzakirəsi olub

⇨ Bax: səh. 9



## NARAHAT GÜRCÜSTAN: riskli ssenarilər ehtimalı artır

⇨ Bax: səh. 6




## Yeni dostlar, yeni körpülər...


8 "Marafonçu" şoumen Əli Kərimlinin təxribatı baş tutmadı

9 Baş Prokurorluq və DİN: İctimai asayişin pozulmasına yönələn qanunsuz hərəkətlərin qarşısı qanunvericiliyə uyğun qaydada alınacaq

16 Bunları bilmək maraqlıdır...

# Azərbaycan Ordusu: ərazi bütövlüyünün bərpası və regional sabitlik uğrunda

**Azərbaycan Ordusunun yaradılmasından 101 il ötür. Bu müddət ərzində dünyada çox şeylər dəyişib. 70 il Azərbaycan müstəqilliyindən uzaq düşüb. Ancaq XX əsrdə ikinci dəfə azadlığına qovuşan Vətən Ordusunun da qayğısına qalmaqdadır. Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu ilə bağlı yaratdığı strateji kurs öz bəhrəsini verir. 100 illik yubileyini möhtəşəm şəkildə dünyaya nümayiş etdirən Silahlı Qüvvələrimiz daim inkişaf edir. Prezident İlham Əliyev bu istiqamətdə səmərəli və real addımlar atmaqdadır.**

Bu gün Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusu sırasında yer alır. Bizə dost olmaq istəməyən dairələr ölkə rəhbərliyinə və Ordumuza qarşı təxribatçı informasiya fəaliyyətlərini genişləndirməyə çalışırlar. Bunun fonunda hər gün daha da güclənən Azərbaycan Ordusu ölkənin ərazi bütövlüyünü bərpa etməyə olan böyük əzmkarlığı ilə daha da parlayır. Ümumiyyətlə, Azərbaycan Ordusunun tarixi missiyasının geosiyasi aspektlərinin təhlili aktuallıq kəsb edir.





### Möhtəşəm güc: Azərbaycan Ordusunun daimi inkişafı

Azərbaycana qarşı düşmənin informasiya savaşını daha da genişləndirdiyi haqqında məlumatlar yayılır. Onu müəyyən üsullarla həyata keçirməyə çalışırlar. Onların sırasında Azərbaycan Ordusu haqqında təxribatçı informasiyalarla yanaşı, müxtəlif yüksək vəzifəli şəxslər barədə həqiqətə uyğun olmayan məlumatların uydurulması da vardır. Hətta xüsusi təşkil edilmiş üsulla ermənilər azərbaycanlı adı ilə sosial şəbəkələrdə qeydiyyatdan keçir və informasiya savaşında iştirak edirlər.

Təbii ki, bütün bunlar gözlənilməz deyil və Azərbaycan tərəfinin iradəsini qətiyyən sındıra bilməz. Əksinə, Azərbaycan daha təkmil üsullarla və daha təmkinli qaydada bizə dost olmayan dairələrin cavabını verir. Üstəlik, hücum taktikası ilə həqiqətləri çevik surətdə dünya ictimaiyyətinə çatdırır. Artıq deyə bilərik ki, N.Paşinyanın komandasının bəyan etdiyi Azərbaycana qarşı informasiya hücumu taktikası tam iflasa uğrayıb.

Düşmənin yaymağa çalışdığı hər bir yalan informasiya ifşa olunur və real vəziyyət ortaya qoyulur. Həmin kontekstdə Azərbaycanın müdafiə qüdrətinə qarşı aparılan çirkin kampaniya da sabun köpüyü kimi dağılır. Prezident İlham Əliyev Cəmşid Naxçıvanski adına Hərbi Liseydə yenidənqurma və əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanışlıqdan sonra ifadə edib: "Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bizim ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı artır. Bu gün ordumuz ən yüksək səviyyədədir".

Bu fikri konkret faktlar təsdiq edir. Beynəlxalq ekspertlər dəfələrlə fikir bildiriblər ki, Azərbaycan Ordusu bütün göstəricilərinə görə Cənubi Qafqazda ən güclü ordudur. Ayrıca, Ermənistan silahlı qüvvələrindən dəfələrlə qüdrətlidir. Məsələn, 2016-cı ilin məlum Aprel döyüşlərində Azərbaycan Ordusunun kiçik bir hissəsi Ermənistan ordusunu darmadağın etdi. Erməni əsgərlər qaçmaqla xilas olmağa çalışırdılar. Ermənistan ordusunu tam məğlubiyyətdən Rusiya xilas etdi. Bunu indi rəsmi səviyyədə açıq deyirlər. Ermənilər yalvarıblar ki, Azərbaycanı dayandırsınlar.

Lakin hətta qısamüddətli döyüş belə göstərdi ki, Ermənistan ordusu Azərbaycan Ordusundan dəfələrlə zəifdir. Həm təşkilati, həm silahlanma, həm döyüş taktikası, strateji planlama kimi istiqamətlərdə erməni ordusu çox geridə qalır. İndi Ermənistan rəsmiləri ordudakı xəyanətkarları, caniləri, silah alverçilərini, bacarıqsız zabitləri axtarmaqla məşğuldursa, Azərbaycan rəhbərliyi ordunu daha da gücləndirir. Bu siyasətin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Bununla bağlı Prezident İlham Əliyev bəyan edib: "Ulu Öndərin misilsiz xidmətləri Azərbaycan xalqının qəlbində daim yaşayır. Biz onun işini davam etdiririk. Ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir".

Konkret ifadə etsək, bu gün Azərbaycan Ordusunun davamlı olaraq inkişaf etdirilməsi dərin düşünülmüş, müasir reallıqları və tələbatları tam nəzərə alaraq aparılan siyasətin birbaşa bəhrəsidir. Şübhə yoxdur ki, bu proses inkişaf etdiriləcək. Onun başlıca özəlliyi ondan ibarətdir ki, Azərbaycan Ordusunun inkişaf konsepsiyası bütövlükdə Azərbaycanın inkişafı konsepsiyasının tərkib hissəsidir. Buna görədir ki, dövlət başçısı xüsusi vurğulayır: "Azərbaycan bu gün bütün sahələrdə uğurla inkişaf edir. Əminəm ki, bu inkişaf dayanıqlı olacaq".

### Ordu quruculuğu fəlsəfəsi: iki məqamın əhəmiyyəti

Burada digər mühüm məqam Azərbaycan rəhbərliyinin ordunun inkişafı ilə bağlı aydın məqsədinin olmasındadır. Ölkə rəhbəri həmin kontekstdə vurğulayıb ki, Azərbaycanın imkanları artır, maddi vəziyyəti daha da yaxşılaşır, orduya lazım olan texnika, silah-sursat alınır, gətirilir. Bütün bunlar konkret məqsəd daşıyır. İlham Əliyev həmin məqsədi aydın və lakonik ifadə edib: "Bir sözlə, biz bütün bu işləri ona görə edirik ki, daha güclü orduya malik olaq və öz ərazi bütövlüyümüzü bərpa edək".

Azərbaycanda ordu quruculuğu fəlsəfəsinin regionun digər dövlətlərinin ordu quruculuğuna yanaşmasından başlıca fərqi bundan ibarətdir. Bu mühüm məqamı həm mütəxəssislər, həm də KİV orqanları daim vurğulamalıdırlar. Dövlət başçısı konkret mövqe ortaya qoyub. Azərbaycan Ordusu kimlərəsə hücum etmək, başqasının torpağını zəbt etmək və ya ona diqtə etmək üçün gücləndirilmir. Azərbaycan əsgərinin özgə torpaqlarında gözü yoxdur. Onun bütün iradəsi, ağlı, qabiliyyəti və peşəkarlığı Vətən torpağını qorumaq fəlsəfəsi üzərində formalaşır. Azərbaycan Ordusu psixoloji cəhətdən məhz bu səbəbə görə yenilməzdir. Çünki özünümüdafiə hər bir ölkənin təbii haqqıdır, bunun alternativi yoxdur. Ona görədir ki, erməni əsgəri Azərbaycan əsgərinin qətiyyəti, inadı, əzmkarlığı qarşısında tab gətirməyərək qaçır.

Azərbaycan Ordusu üçün qarşıya qoyulmuş əsas hədəf də aydındır: ərazi bütövlüyünü bərpa etmək! Prezident İlham Əliyev bu məqamı dəfələrlə və açıq vurğulayıb. Dövlət başçısı deyib: "Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək".

Əlbəttə, qarşısına bu cür müqəddəs bir vəzifə qoyulmuş ordu daim inkişafda olmalı, onun sıraları daha da möhkəmlənməlidir. Bütün aspektlərdə Azərbaycan Ordusu davamlı olaraq güclənməlidir ki, ərazi bütövlüyünü bərpa etsin və bununla da regionda sülhün bərqərar olmasını təmin etsin. Məsələ ondan ibarətdir ki, Cənubi Qafqazın lider dövləti kimi Azərbaycan regional təhlükəsizliyin təminatçısıdır. Təcrübə göstərir ki, bu funksiyanı Azərbaycan Ordusu Türkiyə Silahlı Qüvvələri ilə birlikdə yerinə yetirə bilir. Azərbaycan-Türkiyə hərbi təlimləri hər şeydən öncə məhz bu məqsədə xidmət edir.

Vurğulanan məqamlar Azərbaycan Ordusunun hərbi qüdrətinin artırılması prosesinin həm ölkənin ərazi bütövlüyünü, həm də regional təhlükəsizliyi təmini etmək baxımından çox vacib olduğunu təsdiqləyir. Azərbaycanın hər an hərbi əməliyyatlara hazır olması məqamı bu özəlliklə sıx bağlıdır. Söhbət faktiki olaraq regionun bir daha qeyri-müəyyənliyə, terror və separatizmin ağuşuna atılmasına imkan verməməkdən gedir. Azərbaycan Ordusunun missiyası yalnız dövlət sərhədləri daxilində əmin-amanlığı təmin etməklə məhdudlaşmır. Hazırda onun bir beynəlxalq missiyası da vardır. O həm də məsuliyyətdir. Deməli, daim inkişafda və təkmilləşməkdə olmaq gərəkdir.

Aydındır ki, bu kimi məqamlar Azərbaycan Ordusu qarşısında Ermənistan silahlı qüvvələrinin dayana bilməyəcəyini sübut edir. Bununla belə, yaranmış indiki vəziyyət digər düşündürücü faktoru göz önünə gətirir. Hələ də Ermənistanın havadarları ona yardım etməklə bölgədə ədalətin yer tutmasına mane olurlar. Bu, daha təhlükəli bir mənzərədir. Deyək ki, havadarlar ermənilərdən işğal etdikləri torpaqlardan çəkilmələrini tələb etmək əvəzinə, Azərbaycana hərbi əməliyyat keçirməməyi məsləhət görürlər. Bununla da təcavüzə dəstək verir, haqsızın yanında olurlar. Təəssüf ki, həmsədrlərin hər üçü bu mövqedədirlər. Onlar sözdə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, lakin onun reallaşması üçün heç bir ədalətli addım atmaq istəmirlər.

Lakin hər şeyin bir sonu olduğu kimi, bu ədalətsiz münasibətin də bir sonu olacaq. Və o zaman Azərbaycan Ordusunun qarşısında kimsənin dayanması mümkün olmayacaq. Ölkə rəhbərliyinin də əminliklə dediyi kimi, o gün mütləq gələcək!

**Newtimes.az**

## Biləsuvarda yol tikintisinə 5,6 milyon manat ayrılıb

Prezident İlham Əliyev Biləsuvar rayonunun Biləsuvar-Bəhrəmtəpə (56 km)-Çaylı-Bağbanlar-Aranlı-Zəhmətabad avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, on iki min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Biləsuvar-Bəhrəmtəpə (56 km)-Çaylı-Bağbanlar-Aranlı-Zəhmətabad avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 5,6 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyinə bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

## Azərbaycan Yazıçılar Birliyi üzvlərinin yaradıcılıq şəraitinin yaxşılaşdırılmasına 3 milyon manat ayrılıb

Prezident İlham Əliyev Azərbaycan Yazıçılar Birliyi üzvlərinin yaradıcılıq şəraitinin yaxşılaşdırılması tədbirləri haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Yazıçılar Birliyinin Şüvəlandakı Səməd Vurğun adına Yaradıcılıq Evinin rekonstruksiyası və təmiri üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə ilkin olaraq 3 milyon manat ayrılsın.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

## Əli Əhmədov Yeni Azərbaycan Partiyasının üzvlərini Azərbaycanın Silahlı Qüvvələrinə Yardım Fonduna dəstək aksiyasına qoşulmağa dəvət edib



Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov özünün rəsmi facebook səhifəsində "Silahlı Qüvvələrə Yardım Fonduna dəstək üçün xeyriyyə aksiyası keçirək" sərlövhəli paylaşım edib.

Məqalədə deyilir: *"Xəbərlər yayılıb ki, müxalifətçi partiyanın sədri Əli Kərimli törətdiyi qanunsuzluqlara görə haqqında müxtəlif cərimələr təyin olunmuş şəxslərə maddi dəstək göstərmək adı altında xeyriyyə marafonu keçirmək istəyir."*

*Əli Əhmədov qeyd edir ki, törətdiyi qanunazidd əməllərə görə haqqında cərimələnmək kimi məhkəmə hökmü olanlara bu formada dəstək göstərmək məqsədilə çağırışlar səsləndirmək, marafon keçirmək qanunazidd hərəkətdir. Məqsəd insanlarda qanunun aliliyi prinsipinə, dövlət orqanlarına etimadsızlıq yaratmaqla asayişi pozmaq, qarışıqlıq yaratmağa cəhd göstərməkdir. Buna yol verilə bilməz və yol verilməməlidir.*

*İkincisi isə, müharibə vəziyyətində, bir milyon məcburi köçkünü olan ölkədə xeyriyyə aksiyası keçirmək üçün kifayət qədər səbəblər mövcuddur. Yeni Azərbaycan Partiyası dəfələrlə belə aksiyalar keçirib. Azərbaycanda Silahlı Qüvvələrə Yardım Fondu vardır. Ən şərəfli, əhəmiyyətli və xeyirli xeyriyyə hərəkəti o olardı ki, Silahlı Qüvvələrə Yardım Fonduna dəstək məqsədilə xeyriyyə aksiyası keçirilsin.*

*Baş nazirinin müavini daha sonra YAP-ın üzvlərini Azərbaycanın Silahlı Qüvvələrinə Yardım Fonduna dəstək üçün aksiyaya qoşulmağa dəvət edib: "Mən xeyriyyə marafonu adı altında sabitliyi pozmaq istəyənlərə tutarlı cavab vermək üçün Yeni Azərbaycan Partiyasının üzvlərini Azərbaycanın Silahlı Qüvvələrinə Yardım Fonduna dəstək üçün aksiyaya qoşulmağa dəvət edirəm. Özüm isə işlədiyim idarənin mühasibatına aylıq əmək haqqımın 50 faizinin həmin fonda köçürülməsi barədə müraciət edirəm.*

*Gəlin Ordumuza dəstək olaq."*

## YAP-ın İcra Katibliyində partiyanın Bakı şəhəri üzrə rayon təşkilatlarının sədrlərinin və gənclər birliklərinin sədrlərinin iştirakı ilə müşavirə keçirilib



İyunun 27-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində partiyanın Bakı şəhəri üzrə rayon təşkilatlarının sədrlərinin və gənclər birliklərinin sədrlərinin iştirakı ilə müşavirə keçirilib.

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın uğurla inkişaf etdiyini, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində çox əhəmiyyətli addımların atıldığını bildirib.

Əli Əhmədov bildirib ki, sabitlik, əmin-amanlıq insanların rahat və təhlükəsiz yaşaması üçün əvəzedilməz şərtdir. Bu gün Azərbaycan dünyanın ən sabit ölkələrindən biridir. Bütün bunların sayəsində Azərbaycan inkişaf edir.

YAP Sədrinin müavini onu da diqqətə çatdırıb ki, partiyamızın üzvləri, o cümlədən gənclər Azərbaycanın uğurlarını ictimaiyyət arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidirlər. Çünki müstəqil Azərbaycanın inkişafını gözü götürməyən dairələr ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar.

YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov, həmçinin partiya həyatı ilə bağlı müşavirə iştirakçılarına müvafiq tövsiyə və tapşırıqlarını verib.

## XİN: Münaqişənin sülh yolu ilə həllində maraqlı olan tərəf siyasi iradə və qətiyyət nümayiş etdirməlidir



Ermənistanın xarici işlər naziri dünən mətbuat brifinqində "bir əl ilə danışıqlar aparıb, digər əl ilə atəş açmaq olmaz" deyərək Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun "bu günədək müzakirə olunan sənədlər üzrə danışıqlar aparanda cəbhədə heç də tam sakitlik hökm sürmürdü" fikrinə münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva məsələni şərh edərək deyib: "Xarici İşlər naziri Elmar Məmmədyarov Vaşinqton görüşünün nəticələri ilə bağlı KİV nümayəndələrinin sualını cavablandırarkən qeyd edib ki, münaqişənin tərəfləri qismində Ermənistan və Azərbaycan tərəfləri istər Madrid prinsipləri, onların yenilənmiş variantı, istər Kazan prinsipləri və ya "Lavrov planı" adlandırılan sənəd olsun, bunlar üzrə danışıqlar apararkən də təmas xəttində gərginliklər olub. Bununla belə, substantiv və intensiv dialoq davam etdirilirdi. Yəni, danışıqlar prosesi cəbhə xəttindəki vəziyyətin girovuna çevrilməməlidir. Bunu anlamamaq və bu deyiləndən nəticə çıxarmamaq "Ermənistan tərəfinin danışıqlar prosesinin irəli aparılmaması üçün bəhanələr axtarır" fikrini bir daha təsdiq edir. Xatırladaq ki, cəbhə xəttindəki gərginliyin səbəbi məhz Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərində qeyri-qanuni mövcudluğudur və bu gərginliyə son qoymaq üçün danışıqlar prosesi substantiv məsələlərin həlli üzrə irəli aparılmalıdır. Ermənistan tərəfinin məntiqi ilə Düşənbə görüşündən sonra əldə edilmiş qarşılıqlı razılıq əsasında cəbhə bölgəsindəki nisbi sakitlik dövründə biz danışıqlarda konkret nəticələr əldə etməli idik, lakin hər şey göz qabağındadır. Münaqişənin sülh yolu ilə həllində maraqlı olan tərəf konkret nəticəyə yönəlik danışıqlardan yayınmaq üçün bəhanə axtarmamalıdır, siyasi iradə və qətiyyət nümayiş etdirməlidir. Ermənistan tərəfindən bizim və beynəlxalq ictimaiyyətin gözləntisi bundan ibarətdir".

# Akademik Ramiz Mehdiyevin yeni əsərinin Dövlət İdarəçilik Akademiyasında müzakirəsi olub



**İyunun 28-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: problemin mənbələri və nizamlanma perspektivləri" adlı əsərinin müzakirəsi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbiri açan DİA-nın rektoru, akademik Urxan Ələkbərov akademik Ramiz Mehdiyevin bu əsərində də əvvəlkilərdə olduğu kimi, həm problemin kökünün və necə inkişaf etdiyinin, həm də həlli imkanlarının təqdim edildiyini bildirib. Rektor deyib: "Akademik Ramiz Mehdiyevin əsərlərinin müasir Azərbaycanın inkişafı, dünyada cərəyan edən qlobal proseslərin təhlili baxımından böyük əhəmiyyəti var. Görkəmli alimin bütün əsərləri bizim akademiya üçün xüsusi əhəmiyyət daşıyır".

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, professor Musa Qasımlı diqqətə çatdırıb ki, akademik Ramiz Mehdiyevin əsərlərində dövlət müstəqilliyini bərpa etmiş ölkəmizdə cərəyan edən ictimai, siyasi proseslərə, Ermənistanın təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinə, onun köklərinə, həlli perspektivlərinə fəlsəfi baxış ortaya qoyulur. Akademik yeni əsərində də, ilk növbədə, münaqişənin köklərinə nüfuz edir, ən mötəbər mənbələrə istinadla fikrini əsaslandırır. Alim bu qənaətə gəlir ki, münaqişənin mənbələrinin mahiyyətini, səbəblərini və indiki konyunkturunu anlamaq üçün onu, ilk növbədə, Rusiya imperiyasının və sovet hakimiyyətinin Cənubi Qafqazda köçürmə siyasəti kontekstində araşdırmaq lazımdır. Əsərdə, həmçinin Dağlıq Qarabağ Muxtar Vilayətinin süni şəkildə yaradılması və sovet Rusiyasının strateji məqsədləri, Azərbaycanın Türkiyəyə yaxınlaşmasının qarşısını almaqdan ötrü Dağlıq Qarabağ məsələsini ortaya atması, xaricdən gətirilən ermənilərin Azərbaycan ərazisində yerləşdirilməsi ilə yanaşı, azərbaycanlıların Ermənistan ərazisindən deportasiyası diqqətə çatdırılıb. Ən vacib məsələlərdən biri də əsərdə ötən əsrin 80-ci illərinin sonunda respublika rəhbərliyinin zəifliyi səbəbindən münaqişənin başlanmasının qeyd olunmasıdır. Müəllif sonrakı prosesləri mərhələlərə bölüb, o cümlədən ATƏT-in Minsk qrupunun fəaliyyəti, atəşkəsə nail olunması, Lissabon sammitinin müddəaları və ikili standartlar diqqətə çatdırılıb. Sonda akademik xüsusi vurğulayır ki, N.Paşinyan tərəfindən anons edilmiş "iqtisadi inqilab" və Ermənistanın sosial-iqtisadi həyatında əsaslı dəyişikliklər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi tezliklə və ədalətli şəkildə nizamlanmadan baş verməyəcək.

Milli Məclisin deputatı, DİA-nın Dövlət qulluğu və kadr siyasəti kafedrasının dosenti Aydın Mirzəzadə deyib: "Akademik Ramiz Mehdiyev tədqiq etdiyi mövzu ilə bağlı birbaşa proseslərin içindədir. Bu baxımdan onun əsərləri nəinki indi, gələcəkdə də oxucular və tədqiqatçılar üçün çox maraqlı olacaq. Yeni əsər sistemlidir, belə ki, burada problemin tarixi köklərindən başlayaraq bu günə qədər olan bütün mərhələlər əhatə olunur. Əsər, həmçinin faktlarla zəngindir. Eyni zamanda, əsərdə mövzu ilə bağlı yeni faktlar aşkarlanır - bu həmin faktlardır ki, biz onlara indiyə qədər diqqət yetirməmiş, öz təbliğatımızda ondan istifadə etməmişik".

Milli Məclisin deputatı, DİA-nın Siyasi Araşdırmalar İnstitutunun direktoru, professor Elman Nəsirov əsərdə çar Rusiyasından başlayaraq sovet dövrünədək münaqişənin köklərinin hərtərəfli araşdırıldığını, müəllifin sistemli təhlil apardığını, A.Qriboyedov, S.Qlinka, N.Şavrov və başqa mənbələri tədqiqata cəlb edərək Dağlıq Qarabağ münaqişəsinin necə yarandığını oxucuya təqdim etdiyini bildirib. Əsərdən aydın olur ki, istər çar, istərsə də sovet Rusiyası konkret ərazini - Azərbaycanı ermənilər vasitəsilə nəzarətdə saxlamaq istəyir. Müstəqillik illərində Azərbaycanın inkişafı sayəsində ölkənin dünyada hörmət qazanmış sabit dövlətə çevrildiyini yazan müəllif, eyni zamanda, Dağlıq Qarabağ münaqişənin həllində sülh yoluna sadiqliyini, lakin hərbi yolla həlli hüququnu da özümüzdə saxladığını bildirir. "Əsər rus və Azərbaycan dillərində nəşr edilib. Onun BMT-nin 6 dilinə tərcümə edilməsi çox əhəmiyyətli olardı", - deyə professor Elman Nəsirov vurğulayıb.

DİA-nın prorektoru, hüquq üzrə elmlər doktoru Mehdi Abdullayev Azərbaycan elminə töhfə olan bu əsərdə Dağlıq Qarabağ probleminin siyasi, hüquqi, tarixi aspektlərdən təhlil edildiyini söyləyib. Qeyd edib ki, müəllif əsərdə SSRİ dağılandan sonra Azərbaycanın beynəlxalq sərhədlərinin (digər müttəfiq respublikaların sərhədləri kimi) dünya birliyi tərəfindən "uti possidetis juris" prinsipi əsasında, yəni, müstəqillik əldə edildiyi anda mövcud olan keçmiş inzibati sərhədlər çərçivəsində tanındığını göstərir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru, "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədr müavini Elçin Əhmədov vurğulayıb ki, akademik Ramiz Mehdiyevin yeni əsəri müasir dövrdə cəlb edildiyimiz münaqişə ilə daha yaxından tanış olmaq istəyən hər bir tədqiqatçıda real təsəvvür yaradacaq, müstəqillik tariximizdə Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı aparılan tədqiqatların kompleks şəkildə öyrənilməsi üçün mühüm mənbə rolunu oynayacaq.

Professor Elçin Əhmədov bildirib ki, əsərdə tarixi sənədlər əsasında təkzibedilməz faktlarla Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün uzun müddətdən bəri hazırlanmış plan üzrə ermənilərin Dağlıq Qarabağı Azərbaycandan ayırmaq cəhdlərinin əsassız və qeyri-qanuni olması sübut edilir: "Müəllif qeyd edir ki, 1980-ci illərin axırlarında SSRİ-də "yenidənqurma" adı altında baş verən hadisələrə və dağıdıcı proseslərə diqqətlə nəzər saldıqda, qondarma "Dağlıq Qarabağ problemi"nin tamamilə süni mahiyyət daşıdığı aydın olur. Həmin dövrdə SSRİ-nin ali rəhbərlərindən biri olan Heydər Əliyevin hakimiyyətdən kənarlaşdırılması nəticəsində Ermənistanın ultramillətçi dairələri, onların Kremldəki və xarici ölkələrdəki havadarları tərəfindən Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarılması və onun Ermənistana inteqrasiya edilməsi üçün əlverişli siyasi zəmin yaradıldı".

Əsərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin zəngin mənbələr əsasında kompleks şəkildə araşdırıldığını vurğulayan Elçin Əhmədov onu alimin elmi-nəzəri və fəlsəfi ümumiləşdirmələri baxımından Azərbaycan elminin böyük nailiyyəti kimi səciyyələndirib.

DİA-nın hüquq kafedrasının professoru, hüquq üzrə elmlər doktoru Namiq Əliyev deyib: "Akademik Ramiz Mehdiyevin bu və əvvəlki əsərləri göstərir ki, Dağlıq Qarabağ problemi daim diqqətdə olmalıdır. Bu baxımdan əsər çox vaxtında yazılıb və orada qaldırılan məsələlərdən biz müəyyən nəticələr çıxarmalıyıq".

Müzakirələrə yekun vuran akademik Urxan Ələkbərov qeyd edib ki, akademik Ramiz Mehdiyev görkəmli alim, həm də yüksək idarəçilik təcrübəsinə malik şəxsiyyətdir. Onun bu əsərdə əksini tapan fikirləri vacibdir. Bu əsər də, əvvəlkilər kimi, tədris proqramına daxil edilməlidir.

# “Ənənəvi incəsənət vasitəsilə inklüziv təhsilin təşviqi” layihəsinin təqdimatı olub

## HEYDƏR ƏLİYEV FONDUNUN VİTSE-PREZİDENTİ LEYLA ƏLİYEVA TƏDBİRDƏ İŞTİRAK EDİB







İyunun 28-də “Ənənəvi incəsənət vasitəsilə inklüziv təhsilin təşviqi” layihəsinin təqdimatı olub. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

Qeyd edildi ki, layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən, BMT-nin İnkişaf Proqramının həyata keçirdiyi “Vətəndaş cəmiyyətinin iştirakı və inklüziv təhsilin tətbiqi vasitəsilə Azərbaycanda təhsil sisteminin müasirləşdirilməsi” Proqramı çərçivəsində reallaşdırılır. Layihənin icrasında əsas tərəfdaşlar “İçərişəhər” Dövlət Tarix Memarlıq Qoruğu İdarəsi və Təhsil Nazirliyidir. Layihə çərçivəsində İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi, habelə Bakı şəhərindəki ümumtəhsil məktəbləri və xüsusi məktəblər ilə əməkdaşlıq həyata keçiriləcək. Layihənin əsas məqsədi İçərişəhər Ənənəvi İncəsənət Mərkəzinin inklüziv təhsil komponenti kimi sağlamlıq imkanları məhdud şəxslər üçün əlçatan edilməsi və əmək bazarının tələblərinə uyğun Peşə Təlimi Mərkəzinin yaradılmasıdır.

Diqqətə çatdırıldı ki, bu layihəyə cəlb olunan müəllim və sənətkarlar sağlamlığı məhdud gəncləri digər gənclərlə birlikdə öyrətmək üçün zəruri bilik və bacarıqlarla təmin ediləcəklər. Onların inklüziv təhsil prinsipləri barədə məlumatlılığı yerli və beynəlxalq təlimlər vasitəsilə artırılacaq. Layihə inklüziv peşə təhsili modelinin təşviqinə və ölkədə sağlamlıq imkanları məhdud şəxslər üçün bərabər şəraitin təmin edilməsinə töhfə verəcək. Sağlamlıq imkanları məhdud gənclərin ənənəvi incəsənət sahəsində əmək bazarının tələblərinə uyğunluğu artırılacaq. Proqram başa çatandan sonra layihənin nəticələrindən müvafiq tövsiyələrin hazırlanmasında istifadə olunacaq.

Bildirildi ki, layihənin əsas hədəf qrupları xüsusi məktəblərdə formal təhsil almış, inklüziv incəsənət və sənətkarlıq üzrə peşə təhsili proqramında iştirak etməkdə maraqlı olan sağlamlıq imkanları məhdud gənclər, təhsil prosesində iştirak edən təlimçilər, xüsusi təhsil verənlər, İçərişəhər Ənənəvi İncəsənət Mərkəzinin işçi heyəti və seçilmiş pilot məktəblərdir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva layihəyə cəlb olunan sağlamlıq imkanları məhdud gənclərlə söhbət etdi, onlarla şəkil çəkdirdi.

# Azərbaycanda ilk dəfə inklüzivlik hakatonu təşkil edilib



Azərbaycanda ilk dəfə inklüzivlik hakatonu təşkil edilib. AZƏRTAC xəbər verir ki, iyunun 28-də Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının təşkil etdiyi mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak edib.

İnklüzivlik hakatonu ideya və açıq mənbədən olan həll yollarını təklif edə biləcək insanların bir araya gətirilməsi deməkdir. Həll yolları dedikdə tətbiqi proqramlar, vebsaytlar, elektron məhsullar kimi müxtəlif innovativ xidmətlər nəzərdə tutulur.

BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakassetti bu yarışmanın dünyanın 60 ölkəsində keçirildiyini, Azərbaycanda isə ilk dəfə təşkil olunduğunu qeyd etdi. O, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın inklüziv ideyaların ilk carçısı olduğunu və onun daim bu cür layihələrə dəstək göstərdiyini dedi. “İnklüzivliyi bizi birləşdirən amil kimi görək”, - deyən Alessandro Frakassetti texnologiyalara dövrümüzün həll variantı kimi yanaşmağı tövsiyə etdi və müsabiqəni “inklüzivliyin çempionatı” adlandırdı.

Sonra Heydər Əliyev Fondunun vitse-prezidenti





Leyla Əliyeva yarışmanın başlamasını bildirən rəmzi düyməni basdı və müsabiqəyə start verildi. On altı komandadan ibarət hakaton iştirakçıları fasiləsiz olaraq 48 saat ərzində öz ideyalarını praktiki prototiplərə çevirmək üçün təlimatçılar qrupu ilə işləyəcəklər. Təlimatçılar iştirakçı qruplara dəstək göstərəcək və ən yaxşı mümkün həll yollarının işlənib hazırlanmasına kömək edəcəklər. Həyəcanlı təlim modulları və gərgin iş dolu üçgünlük intensiv proqramın sonunda innovasiya, inklüzivlik və texnologiya sahələrində səriştəsi olan milli və beynəlxalq ekspertlərdən ibarət münsiflər heyəti ayrı-ayrı qrupların hazırladıqları modelləri nəzərdən keçirəcək və hansı ideyanın qalib gəldiyinə dair yekun rəy bildirəcəklər. Qalib gələn ideya 5 min manat məbləğində mükafat alacaq və üç ay müddətində ideyanın tətbiqi tamamlanacaq.





# Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası keçirilib

**İyunun 28-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası keçirilib.**

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sessiyanın gündəliyinə aşağıdakı məsələlər verilib.**

*1. 2019-cu ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları*

*2. Naxçıvan Muxtar Respublikasının 2018-ci il dövlət büdcəsinin icrasının təsdiq edilməsi*



Gündəlikdə duran birinci məsələ ilə bağlı çıxış edən Naxçıvan Muxtar Respublikası Baş Nazirinin birinci müavini Elşad Əliyev deyib ki, görülmüş tədbirlərin nəticəsində muxtar respublikada aqrar sahənin inkişafı təmin edilib, 2019-cu ildə 27 min 231 hektar sahədə yazlıq əkin keçirilib, cari ilin məhsulu üçün 33 min 308 hektar sahədə taxıl əkilib. Hazırda muxtar respublikada taxıl biçini davam etdirilir. Bu il tədarük məntəqələri məhsul istehsalçılarından buğdanın hər kiloqramını 35, arpanın hər kiloqramını 30, qarğıdalının isə hər kiloqramını 40 qəpikdən qəbul edir. Muxtar respublikada tütünçülüyün də inkişafına diqqət artırılıb, 50,5 hektar sahədə tütün əkilib, 317,2 hektar sahədə meşəsalma, meşəbərpa və toxumla əkin aparılıb. 2019-cu ilin ötən dövründə kənd təsərrüfatının inkişafı ilə bağlı banklar tərəfindən 4 milyon 789 min 600 manat kredit verilib, məhsul istehsalçıları 7079 ton mineral gübrə ilə təmin olunub. Həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada 133 milyon 73 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal edilib, ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,2, süd istehsalı 1,5, yun istehsalı 1,6, yumurta istehsalı 1,3 faiz artıb. Kənd təsərrüfatının dinamik inkişafı ixracın həcminə də müsbət təsir göstərib, nəticədə bu ilin 6 ayında muxtar respublika üzrə 40 milyon 359 min Amerika Birləşmiş Ştatları dolları dəyərində kənd təsərrüfatı məhsulları ixrac olunub.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov çıxış edərək deyib ki, 2019-cu ilin ötən dövründə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin xətti ilə 64 milyon 357 min manat həcmində inşaat işləri yerinə yetirilib ki, bunun da 60 milyon 751 min manatını və ya 94,4 faizini tikinti-quraşdırma işləri təşkil edib. Bəhs olunan dövrdə Şərur rayonunun Kərimbəyli, Ordubad rayonunun Dəstə kəndlərində tam orta məktəb binaları, Naxçıvan şəhərində uşaq bağçası və Naxçıvan Dövlət Universitetinin Tibb Fakültəsi üçün tədris kompleksi istifadəyə verilib. Şərur Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmiri və Şərur Rayon Uşaq Xəstəxanasının yenidən qurulması, Kərimbəyli kəndində və Ordubad rayonunun Dəstə kəndində həkim ambulatoriyalarının tikintisi başa çatdırılıb. Həmçinin bu dövrdə Şahbuz Rayon Mədəniyyət Sarayı istifadəyə verilib. Hazırda Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin, eləcə də 6 tam orta məktəb binasının və 1 musiqi məktəbinin tikintisi, 3 məktəb binasının isə yenidən qurulması davam etdirilir. Həmçinin muxtar respublikada 4 həkim ambulatoriyası, 10 xidmət və 11 kənd mərkəzi tikilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsulov deyib ki, 2019-cu ilin 6 ayında sosial-iqtisadi həyatın bütün sahələri üzrə inkişaf istiqamətləri qorunub saxlanılıb, müsbət irəliləyişlərə nail olunub. Bu dövrdə iqtisadi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 1,4 faiz artaraq 1 milyard 278 milyon 115 min manat olub. Ümumi daxili məhsulun 57,5 faizi və ya 734 milyon 701 min manatı istehsalın payına düşüb. Hesabat dövründə bir il öncəyə nisbətən sənaye məhsulu 1,4 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,2 faiz, kənd təsərrüfatı məhsulu 2,8 faiz, informasiya və rabitə xidmətləri 3,9 faiz, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 4,6 faiz artıb. Hesabat dövründə bütün maliyyə mənbələri hesabına əsas kapitala 554 milyon 460 min manat vəsait yönəldilib ki, bu da bir il öncəki göstəricidən 1,2 faiz çoxdur. Bu dövrdə muxtar respublikada tikinti və yenidən qurmadan sonra, ümumilikdə, 67 obyekt istifadəyə verilib. 157 obyektin tikintisi və ya yenidən qurulması isə davam etdirilir. Bu ilin birinci yarısında muxtar respublikada 1173 yeni iş yeri açılıb ki, bunun da 99 faizi daimi iş yerləridir. Muxtar respublikada 219 milyon 443 min Amerika Birləşmiş Ştatları dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə artaraq 191 milyon 612 min Amerika Birləşmiş Ştatları dolları təşkil edib, 164 milyon Amerika Birləşmiş Ştatları dollarına yaxın məbləğdə müsbət saldo yaranıb. Bu dövrdə muxtar respublikada əhalinin sayı artaraq 457 min nəfərdən çox olub. Yeni doğulanlarla yanaşı, müsbət miqrasiya saldosu da əhali artımına imkan yaradıb. Həmçinin ilin birinci yarısında muxtar respublikaya 196 min 474 turist gəlib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2019-cu ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları barədə məruzə edib.

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun M Ə R U Z Ə S İ

*Hörmətli deputatlar və sessiya iştirakçıları!*

*Bu il ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin 50 ili tamam olur. Dahi şəxsiyyətin ölkəmizə birinci rəhbərliyi dövründə mühüm işlər görülmüş, 1969-cu ilin 14 iyulu Azərbaycanın inkişaf və tərəqqi tarixinə çevrilmişdir. "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır", - deyən Ulu Öndər ölkəmizə ikinci rəhbərliyi dövründə isə Azərbaycan dövlətçiliyinin siyasi-ideoloji əsaslarını və milli inkişaf konsepsiyasını yaratmış, xalqımız Milli Qurtuluşa nail olmuş, dövlətçiliyimiz və müstəqilliyimiz qorunub saxlanılmışdır.*

*Əsası Ümummilli Liderimiz tərəfindən qoyulmuş inkişaf strategiyası bu gün Azərbaycanda və Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. "Ailə təsərrüfatları ili" olan 2019-cu ilin birinci yarısında da muxtar respublikada daxili imkanlardan səmərəli istifadə olunmuş, iqtisadi inkişaf təmin edilmiş, yeni istehsal və xidmət sahələri yaradılmış, iş yerləri açılmışdır. Bu dövrdə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illik yubileyi qeyd edilmiş, dövlət proqramlarının uğurlu icrası, mövcud potensialdan səmərəli istifadə iqtisadiyyatı şaxələndirmiş, bütün parametrlər üzrə iqtisadi sabitliyə və davamlı inkişafa nail olunmuşdur.*

*Hörmətli sessiya iştirakçıları!*

*Muxtar respublikanın davamlı və tarazlı inkişafı sosial-iqtisadi islahatların əhatə dairəsinin genişləndirilməsini zəruri edir. 2019-cu ilin ikinci yarısında da Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə islahatlar davam etdirilməli, makroiqtisadi sabitlik qorunub saxlanılmalıdır. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında işə tələbkarlıq artırılmalı, nizam-intizama əməl edilməli, qarşıya qoyulmuş vəzifələr vaxtında icra olunmalıdır. Maliyyə Nazirliyi büdcə vəsaitlərinin qanunauyğun və səmərəli istifadəsinə nəzarəti daha da gücləndirməli, etibarlı maliyyə nəzarəti sistemi formalaşdırılmalıdır. Dövlət büdcəsinin proqnoz göstəricilərinin icrası təmin edilməli, Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi tərəfindən bütün tədiyyə növləri üzrə vergi və rüsumlar vaxtında ödənilməlidir.*

*Muxtar respublikada nağdsız ödənişlərin əhatə dairəsinin və həcminin artırılması məqsədilə Vergilər Nazirliyi Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi ilə birgə keçirilən tədbirlərin davamlılığına nail olmalıdır. Həmçinin muxtar respublika əhalisinin maliyyə resurslarına çıxış imkanları bank və digər kredit təşkilatları tərəfindən təmin edilməli, verilmiş kreditlərin təyinatı üzrə istifadəsinə və vaxtında qaytarılmasına diqqət artırılmalıdır.*

*Müasir dövrdə ailə təsərrüfatları özünüməşğulluğun təmin olunmasına və iqtisadi inkişafa mühüm töhfə verir. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan edilməsi qarşıya mühüm vəzifələr qoyur. Ona görə də İqtisadiyyat və Kənd Təsərrüfatı nazirlikləri yerli icra orqanları ilə birlikdə ailə təsərrüfatlarının inkişafı ilə bağlı yeni təkliflər hazırlamalı, qabaqcıl ailə təsərrüfatlarının təcrübələri yayılmalı, ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların satışına və ixracına köməklik göstərilməli, kreditlər verilməlidir.*

*Xarici ölkələrlə ticarət əlaqələrinin genişləndirilməsi iqtisadi inkişafın əsas hədəfidir. Xüsusilə idxalın həcminin azaldılması və ixrac potensialının gücləndirilməsi mühüm əhəmiyyət daşıyır. İqtisadiyyat Nazirliyi muxtar respublikada xarici ticarət dövriyyəsinin artan dinamikasını davam etdirməli, yerli xammala əsaslanan istehsal müəssisələri yaradılmalı, yeni investisiyaların cəlbi və təşviqi istiqamətində tədbirlər görülməlidir. İqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi üçün biznes mühiti daha da yaxşılaşdırılmalı, sahibkarlıq subyektlərinə hərtərəfli köməklik göstərilməli, istehsalın həcmi artırılmalı, daxili bazar qorunmalı, istehlak qiymətlərinə nəzarət olunmalı və süni qiymət artımına yol verilməməlidir.*

*İqtisadiyyat Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi birlikdə ailə təsərrüfatlarında istehsal edilən məhsulların növ və çeşidlərinin artırılması istiqamətində işləri davam etdirməli, yerli istehsal və idxal məhsullarının standartlara uyğunluğuna ciddi nəzarət olunmalı, rəqabətqabiliyyətli məhsul istehsal edilməlidir.*

*Aqrar sektorda həyata keçirilən ardıcıl islahatların nəticəsidir ki, bu ilin məhsulu üçün muxtar respublikada 62 min hektardan artıq sahədə əkin aparılmışdır. Kənd Təsərrüfatı Nazirliyi, şəhər və rayon icra hakimiyyətləri aidiyyəti orqanlarla birlikdə taxıl biçininin vaxtında və itkisiz başa çatdırılması üçün bütün qüvvələri səfərbər etməli, tələbatdan artıq istehsal olunmuş kənd təsərrüfatı məhsullarının qəbulu və satışı, şəhər və rayon mərkəzlərində yarmarkaların keçirilməsini davam etdirməli, mütərəqqi əkin metodlarından istifadə və məhsuldarlığın artırılması sahəsində elmi-təcrübi tədbirlər görülməli, torpaq mülkiyyətçiləri yüksək reproduksiyalı toxumlarla təmin olunmalıdır.*

*Kənd Təsərrüfatı Nazirliyi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi, şəhər və rayon icra hakimiyyətləri əkinəyararlı torpaqların təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarəti gücləndirməli, torpaqların elektron uçotu və xəritələşdirilməsi işi vaxtında başa çatdırılmalıdır.*

*Dövlət Baş Sığorta Agentliyi muxtar respublikada sığorta işini təkmilləşdirməli, könüllü sığortanın tətbiqini və səyyar xidmətin əhatə dairəsini genişləndirməli, insanlar maarifləndirilməli, sığorta bazarında aqrar sektorun xüsusi çəkisi artırılmalıdır.*

*Mütərəqqi suvarma sistemlərinin tikilib istifadəyə verilməsi, anbarlarda kifayət qədər su ehtiyatının yaradılması əkin sahələrinin su təminatını yaxşılaşdırmışdır. Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi şəhər və rayon icra hakimiyyətləri ilə birlikdə suvarma mövsümünün mütəşəkkil keçirilməsinə nail olmalı, suvarma suyunun bölgüsünə və ondan qənaətlə istifadəyə nəzarət olunmalı, torpaqların şoranlaşmasının və eroziyasının qarşısı alınmalı, qapalı suvarma şəbəkələrinin qurulması davam etdirilməlidir.*

⇨ Davamı 6-cı səhifədə

# Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası keçirilib

⇨ Əvvəli 5-ci səhifədə



*Dövlət Statistika Komitəsi mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə əlaqələri gücləndirməli, muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı hazırlanan aylıq və rüblük hesabatların təhlili, obyektiv və müqayisəli işlənməsinə nail olmalı, həmin məlumatlar mətbuatda dərc edilərək ictimailəşdirilməlidir.*

*Ekologiya və Təbii Sərvətlər Nazirliyi isti yay günlərində yaşıllıqların və meşə fondlarının mühafizəsinə diqqəti artırmalı, ekoloji tarazlığın qorunması ilə bağlı yoxlama-reydlər, monitorinqlər və maarifləndirici görüşlər davam etdirilməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Naxçıvan Yaşıllaşdırma Xidməti ilə birlikdə yerli şəraitə uyğun ağac və bitki sortlarının yetişdirilməsində yeni yaradılmış "İqlim otağı"nın və tingçilik təsərrüfatlarının imkanlarından geniş istifadə etməli, sifarişlər qəbul olunmalı və tələbat yerli istehsal hesabına ödənilməlidir.*

*Dövlət Baytarlıq Xidməti heyvandarlıqda epizootik vəziyyəti nəzarətdə saxlamalı, peyvəndləmə tədbirləri vaxtında aparılmalı, malqaranın cins tərkibinin yaxşılaşdırılmasını və süni mayalandırma tədbirlərini diqqətdə saxlamalı, kənd təsərrüfatı aptekləri tələbata uyğun dərman preparatları ilə təmin edilməlidir.*

*"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tələbata uyğun müasir texnika və texnoloji avadanlıqların, suvarma sistemlərinin və arıçılıq ləvazimatlarının, eləcə də gübrələrin alınıb gətirilməsini və lizinq yolu ilə satışını davam etdirməlidir.*

*Muxtar respublikada tikinti və abadlaşdırma işlərinin həcmi ilbəil artır, aparılan quruculuq işlərində yerli materiallardan istifadəyə üstünlük verilir. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilin ikinci yarısında da ayrılmış vəsaitdən səmərəli və düzgün istifadə etməli, həyata keçirilən tikinti işlərinin keyfiyyətini, büdcə vəsaiti hesabına tikinti məhsullarının alışı zamanı qiymətlərin orta bazar qiymətlərinə uyğunluğunu nəzarətdə saxlamalı, bu istiqamətdə aidiyyəti təşkilatlarla qarşılıqlı əlaqədə işləməlidir.*

*Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə, yaşayış məntəqələrinin qazlaşdırılması enerji təhlükəsizliyini təmin etmiş, dayanıqlı elektrik enerjisi və təbii qaz verilişinə nail olunmuşdur. Dövlət Energetika Xidməti və "Naxçıvanqaz" İstehsalat Birliyi elektrik enerjisi və təbii qazın keyfiyyətlə ötürülməsini diqqətdə saxlamalı, bu zaman enerji itkisinə yol verilməməli, istismar olunan avadanlıqlara mövsümə uyğun texniki qulluq göstərilməlidir.*

*Muxtar respublikada yol infrastrukturunun müasirləşdirilməsi və nəqliyyat xidmətinin günün tələbləri səviyyəsində qurulması istiqamətində tədbirlər bu il də davam etdirilir, magistral və kənd yolları yenidən qurulur, sərnişindaşımanın keyfiyyəti artırılır. Avtomobil Yolları Dövlət Agentliyi yol tikintisində keyfiyyətə xüsusi diqqət yetirməli, Dövlət Nəqliyyat Xidməti tərəfindən ictimai nəqliyyatda xidmətin səviyyəsi yüksəldilməli, nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət olunmalıdır.*

*Rabitə və Yeni Texnologiyalar Nazirliyi yeni texnologiyaların tətbiqini diqqətdə saxlamalı, göstərilən xidmətlərin keyfiyyəti yüksəldilməli, maddi-texniki baza gücləndirilməli, ixtisaslı kadr hazırlığı davam etdirilməlidir.*

*Muxtar respublikanın inkişafında təhsil quruculuğu əsas yer tutur. Təhsil Nazirliyi yaradılan şəraitdən istifadə edərək tədrisin keyfiyyətini yüksəltməli, bu zaman yeni texnologiyalardan səmərəli istifadə edilməli, müəllim hazırlığı ilə bağlı innovativ təklif və layihələr dəstəklənməli, ali məktəblərin professor-müəllim heyəti ilə birgə dərslik və dərs vəsaitlərinin müzakirəsi aparılmalı, gənclərin təhsili ilə yanaşı, onların peşə sahələrinə yönləndirilməsinə də diqqət artırılmalıdır.*

*Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi elmi nailiyyətlərin iqtisadiyyatda tətbiqinə nail olmalı, elmi tədqiqatlar davam etdirilməli və beynəlxalq əməkdaşlıq genişləndirilməlidir.*

*Muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələri ixtisaslı kadrların hazırlanmasına, gənclərin innovativ startap layihələrinə, elmi-tədqiqat işlərinə cəlb edilməsinə diqqəti artırmalı, təcrübi dərslər hami təşkilatlarda keçirilməlidir.*

*Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunmasına və səhiyyə maarifinə diqqəti artırmalı, həkim hazırlığı və tibbi təhsilin səviyyəsi yüksəldilməlidir. Səhiyyə müəssisələrində quraşdırılan müasir tibbi avadanlıqlardan səmərəli istifadə olunmalı, həkim və tibb işçiləri mütəmadi kurslara göndərilməlidir.*

*Mədəniyyət Nazirliyi muzeylərin, mədəniyyət abidələrinin, mədəni irsin qorunmasına və təbliğinə yönəlmiş tədbirləri davam etdirməli, tabeliyində olan müəssisələrin fəaliyyətini günün tələbləri səviyyəsində qurmalıdır.*

*Gənclər və İdman Nazirliyi muxtar respublikada olan idman infrastrukturundan istifadəyə və onların qorunub saxlanılmasına, gənclərə iş sahəsində fəaliyyətə diqqəti artırmalı, idman federasiyaları ilə əlaqələri gücləndirməli, yarışlar keçirilməli, idmanın kütləviliyinə nail olunmalıdır.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası sahəsində tədbirləri davam etdirməli, peşə hazırlığını əmək bazarının tələblərinə uyğunlaşdırmalıdır.*

*Müasir dövrdə turizm hər bir ölkənin inkişafında əsas sahə kimi götürülür. Naxçıvan Muxtar Respublikasında da turizmin inkişafı diqqət mərkəzindədir. Ona görə də Turizm Departamenti muxtar respublikaya turistlərin cəlbi ilə bağlı təbliğat və informasiya-məlumatlandırma işlərini davam etdirməli, internet resurslarında və sosial şəbəkələrdə Naxçıvanla bağlı materiallar yerləşdirilməli, ölkə və xarici turizm firmaları ilə əlaqələr gücləndirilməlidir.*

*Dövlət Sosial Müdafiə Fondu tərəfindən pensiyalar vaxtında ödənilməli, pensiya təyinatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada aparılmalı, əmək fəaliyyətinə yeni başlayan işçilər fərdi uçot sistemində qeydiyyata alınmalı və sosial sığorta şəhadətnamələri ilə təmin olunmalı, elektron xidmətlərin əhatə dairəsi genişləndirilməlidir.*

*Muxtar respublikada icbari tibbi sığortanın tətbiqi səhiyyə sahəsində aparılan islahatların tərkib hissəsi kimi əhalinin keyfiyyətli tibbi xidmətlə təminatına hesablanmışdır. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Şərur və Kəngərli rayonlarında icbari tibbi sığortanın tətbiqini təmin etməli, mərkəzləşmiş məlumat bazası və elektron idarəetmə sistemi təkmilləşdirilməlidir.*

*Muxtar respublikada aparılan abadlıq-quruculuq işləri, həyata keçirilən islahatlar bütün yaşayış məntəqələrini əhatə etmiş, rayon mərkəzlərində, qəsəbə və kəndlərdə müasir infrastruktur yaradılmışdır. Şəhər və rayon icra hakimiyyəti orqanları bu imkanlardan səmərəli istifadə etməli, vətəndaşlarla iş gücləndirilməli, müraciətlərə baxılmalı və müvafiq köməklik göstərilməli, abadlıq-təmizlik işlərinə nəzarət olunmalıdır.*

*İqtisadi inkişafın davamlı xarakter alması, yeni iş yerlərinin açılması, gənclərin səmərəli məşğulluğunun təmin edilməsi muxtar respublikada cinayətkarlığın aşağı səviyyədə olmasını təmin etmişdir. Hüquq mühafizə orqanları bundan sonra da ictimai asayişin və sabitliyin qorunmasına diqqəti artırmalı, maarifləndirmə-profilaktika tədbirləri görülməlidir.*

*Ordu, birləşmə və hərbi hissələrdə döyüş hazırlığının artırılması, ehtiyatların qorunub saxlanması, əsgərlərin mövsümə uyğun geyim və yeməklə təmin olunması diqqətdə saxlanılmalı, Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının birgə və qarşılıqlı fəaliyyəti davam etdirilməlidir.*

*Fövqəladə Hallar Nazirliyi yanğın təhlükəsizliyinin təmin edilməsi, dəm qazından boğulma hallarının qarşısının alınması və taxıl sahələrinin biçindən sonra yandırılmaması istiqamətində maarifləndirmə tədbirlərinin səmərəliliyini artırmalıdır.*

*Naxçıvan Muxtar Respublika Prokurorluğu Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə torpaqların qanunsuz zəbt olunmasının və təyinatından kənar istifadəsinin qarşısının alınması üçün zəruri tədbirlər görməlidirlər.*

*Ədliyyə Nazirliyi məhkəmə qərarlarının vaxtında icra olunmasını diqqətdə saxlamalı, Məhkəmə Ekspertizası Mərkəzinin fəaliyyətini gücləndirməli, xüsusi qaydada fəaliyyət göstərən notariusların qanunvericiliyə əməl etməsinə nəzarət edilməlidir.*

*Dövlət Gömrük Komitəsi daxili bazarın qorunması istiqamətində tədbirlərini davam etdirməli, xarici ticarət iştirakçıları olan sahibkarlıq subyektləri ilə əlaqələri gücləndirməlidir.*

*Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət qulluğuna və digər orqanlara qəbul imtahanlarının dövriliyini təmin etməli, kadr hazırlığı üzrə kursların təşkilini və test bankının yenilənməsini diqqətdə saxlamalıdır.*

*Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti çağırışı qanunvericiliyə uyğun təşkil etməli, hərbi vəzifəlilərin qeydiyyatuçot məsələlərinə diqqətlə yanaşmalıdır.*

*Muxtar respublikanın kütləvi informasiya vasitələri informasiya-məlumatlandırma işini günün tələbləri səviyyəsində qurmalı, Naxçıvan Muxtar Respublikasının müasir inkişafı, milli dəyərlərimiz və turizm potensialı haqqında materiallar hazırlanmalı, sosial şəbəkələrin imkanlarından səmərəli istifadə olunmalı və geniş təbliğat işləri aparılmalıdır. Mətbuat ictimai fikri istiqamətləndirməli, muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı analitik və təhlili materiallar işlənilməlidir.*

*Hörmətli sessiya iştirakçıları!*

*2019-cu ilin birinci yarısının nəticələri onu deməyə əsas verir ki, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət Naxçıvan Muxtar Respublikasında inkişaf dinamikasını qoruyub saxlamışdır. Bu inkişafın davam etdirilməsində və qarşıya qoyulan vəzifələrin icrasında Sizə və muxtar respublika əhalisinə uğurlar arzulayır, çıxışımı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlayıram: "Biz bütün istiqamətlərdə uğurla inkişaf edirik. Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, tutduğumuz yoldan dönməyəcək və daim irəli gedəcəyik".*

*Sağ olun!*

* * *

Gündəlikdə duran ikinci məsələ ilə bağlı çıxış edən Naxçıvan Muxtar Respublikası Baş Nazirinin müavini-Maliyyə naziri Səbuhi Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin 2018-ci ildə gəlirləri 73 milyon 400 min manat təyinata qarşı 86 milyon 794 min 879 manat və ya 118,2 faiz icra olunmaqla büdcəyə 13 milyon 394 min 879 manat artıq vəsait mədaxil edilib. Büdcə gəlirlərinin 84,3 faizi və ya 73 milyon 205 min 241 manatı Vergilər Nazirliyi tərəfindən təmin edilmiş vergi və rüsumlardan, 10,8 faizi və ya 9 milyon 378 min 630 manatı Dövlət Gömrük Komitəsi tərəfindən toplanılmış daxilolmalardan, 4,3 faizi və ya 3 milyon 743 min 409 manatı dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən, 0,6 faizi və ya 467 min 599 manatı isə digər mənbələr hesabına daxil olub. 2018-ci ildə Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri 355 milyon 300 min manat proqnoza qarşı 354 milyon 466 min 625 manat və ya 99,8 faiz icra olunub. 2018-ci ildə büdcə xərclərinin 64,5 faizi və ya 228 milyon 634 min manatı cari xərclərə, 35,5 faizi və ya 125 milyon 832 min manatı isə əsaslı xərclərə yönəldilib. Əsaslı vəsait qoyuluşu xərclərinin böyük hissəsi muxtar respublikada quruculuq işlərinin aparılmasına, təhsil və səhiyyə müəssisələrinin tikintisinə, eyni zamanda, infrastrukturun yenilənməsi layihələrinin maliyyələşdirilməsinə yönəldilib. Dövlət büdcəsindən maliyyələşən müəssisə və təşkilatlar tərəfindən mal-material və avadanlıqların real dəyəri ilə satın alınmasına, büdcə vəsaitlərindən qənaətlə və səmərəli istifadəyə ciddi nəzarət olunub, nəticədə 2 milyon 141 min manatdan çox vəsaitin əsassız xərclənməsinin qarşısı alınıb.

Sessiyada "Naxçıvan Muxtar Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu qəbul edilib.

Ali Məclisin Sədri 2019-cu ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında əməyi, sabitliyin və təhlükəsizliyin qorunmasında xidməti olanlara təşəkkürünü bildirib, qarşıdakı dövrdə inkişafın təmin olunmasında sessiya iştirakçılarına, muxtar respublikanın hər bir sakininə uğurlar arzulayıb.

Bununla da beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası öz işini başa çatdırıb.

# Yeni dostlar, yeni körpülər...




**Ötən il Cənubi Qafqaz bölgəsinə səfərini Azərbaycanla yekunlaşdıran Almaniya Kansleri Angela Merkel "Azərbaycan ənənələri olan ölkədir" fikrini sadəcə bir fikir olaraq qeyd etməmişdir. Səfərinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin təntənəli şəkildə qeyd olunduğu bir vaxta təsadüf etdiyini önə çəkən Almaniya Kansleri Azərbaycanın zəngin tarixə, milli mənəvi dəyərlərə malik olduğunu, dünya sivilizasiyasına davamlı töhfələr verdiyini xüsusi vurğulayaraq təqdir etmişdir. Azərbaycanla Avropa İttifaqı arasında imzalanan "Tərəfdaşlıq prioritetləri" sənədində də bu məqamlar öz əksini tapıb. Ən əsası Azərbaycanın tolerant ölkə olduğu, multikultural dəyərlərin inkişafı istiqamətində atdığı biri-birindən əhəmiyyətli addımlar təqdir olunur.**

UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının ölkəmizdə keçirilməsi ilə bağlı qərarın qəbul olunmasında da bu uğurlarımızın rolu inkaredilməzdir. Müxtəlif mədəniyyətlərin, dinlərin qovşağında yerləşən Azərbaycanda bütün xalqların nümayəndələri sülh, əmin-amanlıq şəraitində yaşayırlar. Cari ilin martında ölkəmizin ev sahibliyi etdiyi VII Qlobal Bakı Forumunda da dövlətimizin başçısı İlham Əliyev bu mühüm məqama xüsusi diqqət yönəltmişdir: "Biz fəxr edirik ki, müstəqilliyimiz bərpa olunandan sonra bu meyil gücləndi. Biz bu ideyaları qlobal arenada təbliğ etməyə çalışırıq. Ona görə də biz çoxsaylı tədbirlər, beynəlxalq konfranslar, mədəniyyətlərarası dialoq forumu, dünya dini liderlərinin forumu, BMT Sivilizasiyalar Alyansının forumu, Bakı Humanitar Forumu və bir çox başqa beynəlxalq tədbirlər təşkil edərək, xüsusilə fərqli fikirlər gördüyümüz zaman əsas diqqəti multikulturalizmlə bağlı məsələlərə yönəldirik. Düşünürəm ki, Azərbaycanın nümunəsi açıq şəkildə nümayiş etdirir ki, multikulturalizm dünyanı inkişaf etdirməyin, gərginlikləri azaltmağın, əməkdaşlığı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur." Bu Forum bu baxımdan da diqqət çəkdi ki, dünyanın yeni xarici siyasəti Azərbaycanda müzakirə olundu. 55 ölkədən 500-dən artıq nümayəndənin qatıldığı bu tədbirdə ölkəmizin xarici siyasət uğurları təqdir olundu.

Qeyd etdiyimiz kimi, Azərbaycanın ev sahibliyi etdiyi tədbirlərin hər biri ölkəmizin malik olduğu imkanların təqdimatında əhəmiyyətli rola malikdir. Ölkəmizin 2012-ci ildə "Evrovision" mahnı yarışmasına, 2015-ci ildə ilk Avropa Oyunlarına, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi də dünyaya Azərbaycandan ünvanlanan dostluq, əməkdaşlıq, birlik, həmrəylik, ən əsası sülh mesajı idi. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı ilə keçirilən bu tədbirlər, eyni zamanda, Azərbaycanın milli mənəvi dəyərlərinin, tarixinin təqdimatına böyük töhfə oldular. Mehriban xanım Əliyevanın ilk Avropa Oyunlarının açılış mərasimində söylədiyi bu fikirləri xatırlatmaq istərdik: "Avropa Oyunlarının məşəli müqəddəs Ateşgah məbədində alovlandırıldı və yol boyunca hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə döyündürərək ölkəmizi dolaşdı. Məşəl bayram, ruhlandırma və birlik mesajını daşıdı. Məhz alovlanan ruh hamımızı bir araya gətirir."

Azərbaycan xalqı daim milli kökünə, tarixinə, mədəniyyətinə bağlılığını nümayiş etdirmiş, onların təbliği istiqamətində davamlı addımları ilə beynəlxalq aləmdə qazandığı nüfuzu daha da möhkəmləndirmişdir. Bu fakt inkaredilməzdir ki, uzun illər başqa ölkələrin tərkibində yaşamağımıza baxmayaraq, milli xüsusiyyətlərimizi, mənliyimizi qorumuşuq. Dövlətimizin başçısı İlham Əliyev bildirir ki, milli dəyərlərimiz ümumbəşəri dəyərlər əsasında qurulub: "Həsab edirəm ki, qloballaşan dünyada xüsusilə gənc nəsil üçün milli mənəvi dəyərlər xüsusi rol oynayır və oynamalıdır. Hər halda biz Azərbaycanda buna böyük əhəmiyyət veririk və onu da qeyd etməliyəm ki, başqa mədəniyyətə, dinə, tarixə olan hörmət öz mədəniyyətinə, tarixinə, öz dininə olan hörmətdən başlamalıdır. Eyni zamanda, Vətənə bağlı olmayan, vətənpərvərlik hisslərindən kənar olan insanlar başqa mədəniyyətlərin nümayəndələrini də lazımi səviyyədə qəbul edə bilməzlər. Onlar, eyni zamanda, bəzi hallarda başqa mədəniyyətlərə qarşı olan, hörmətsizliyi də, əslində öz mədəniyyətinə olan hörmətsizlik əsasında qururlar. Ona görə də qloballaşan dünyada bu məsələlərə xüsusi diqqət göstərilməlidir."

Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin Sərəncamı ilə təsdiqlənən Bakıda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının keçirilməsinə dair Tədbirlər Planı kompleks tədbirlərin həyata keçirilməsini təmin etməklə yanaşı, bütün dövrlər üçün aktuallığını qoruyan milli mənəvi dəyərlərimizə hörmət prinsipinin həyata keçirilən siyasətin əsasında dayandığını bir daha nümayiş etdirdi. İyunun 30-dan öz işinə başlayacaq tədbir 10 iyul tarixinədək davam edəcək. Ayrı-ayrı sessiyalar çərçivəsində bu və ya digər mövzular müzakirə olunacaq, ümumi fikir mübadiləsi əsasında vahid yanaşma nümayiş etdiriləcək.

UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsi Azərbaycan-UNESCO əlaqələrinin bugünkü inkişaf səviyyəsinə də işıq salır. Bu əlaqələrin inkişafında Heydər Əliyev Fondunun xidmətləri əvəzsizdir. Dövlətimizin başçısı İlham Əliyev mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşündə bu mühüm məqamı qeyd etmişdir: "Muğam sənətinin həm ölkə daxilində, həm də xaricdə inkişafında Heydər Əliyev Fondunun, Mehriban xanımın rolunu xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan muğamının UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına salınması tarixi nailiyyətdir. Biz, eyni zamanda, beynəlxalq muğam müsabiqələri, festivalları keçirmişik. Bu sənət bir neçə ölkədə yaşayır, ancaq Azərbaycan muğamının UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irsi kimi qəbul edilməsi əlbəttə ki, böyük nailiyyətdir. Onu da bildirməliyəm ki, UNESCO-nun müxtəlif siyahılarına Azərbaycan xalqının 13 qeyri-maddi mədəni irs nümunəsi salınıbdır." Cənab İlham Əliyev bu vacib məsələni də qeyd etmişir ki, ümumiyyətlə, mədəniyyətimizin gələcək inkişafı, cəmiyyətdə mövcud olan ovqat, gənc nəslin tərbiyə olunması, bütün bu məsələlər bir-biri ilə bağlıdır: "Ölkə iqtisadi cəhətdən inkişaf edə bilər, siyasi cəhətdən də beynəlxalq mövqeləri güclü ola bilər, ancaq əgər biz xalqımızın əsas, təməl prinsiplərini diqqətdən kənarda qoysaq, onda ölkəmizin uğurlu inkişafı dayanıqlı ola bilməz."

Bir sözlə, müxtəlif mədəniyyətlərin, dinlərin qovuşuğunda yerləşən Azərbaycan bütün sahələri əhatə edən tədbirlərə ev sahibliyi ilə bir daha təsdiqləyir ki, hər istiqamətdə təcrübəsi nümunədir. Bu nümunəviliyə əsas verən düzgün qurulan siyasət, gələcəyə hesablanmış inkişaf konsepsiyamızdır. Azərbaycan ənənələri olan ölkə kimi dünya birliyinin fəal üzvünə çevrilib, bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı hörmət və maraqlar əsasında əlaqələrini genişləndirməklə sözünün imzası qədər önəmi olduğunu bir daha beynəlxalq aləmə təqdim edir. Dövlətimizin başçısı İlham Əliyevin VII Qlobal Bakı Forumunda söylədiyi kimi, əlaqələrimizi gücləndirməyə, yeni dostlar qazanmağa, yeni körpülər tikməyə müvəffəq olmuşuq. UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası ölkəmizin bu təqdimatına yeni əlavələr etməklə dövlətlər, xalqlar arasında körpü rolunu daha da möhkəmləndirəcək.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

# KİVDF-nin Müşahidə Şurası 25 ictimai-siyasi qəzetə maliyyə yardımı ayırıb



İyunun 28-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib.

Bu barədə AZƏRTAC-a KİVDF-dən məlumat verilib.

Şuranın sədri Həsən Həsənov iclası giriş sözü ilə açaraq bildirib ki, gündəlikdə Fondun 2019-cu ilin II yarısı üzrə KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan edilmiş müsabiqəyə təqdim edilmiş sənədlərin müzakirəsi məsələsi dayanır.

Məsələ ilə bağlı məlumat verən icraçı direktor Vüqar Səfərli bildirib ki, 2019-cu ilin ikinci yarısı üzrə KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan edilmiş müsabiqə iyunun 4-dən 27-dək davam edib. "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na əsasən 19 istiqamət üzrə keçirilmiş maliyyə yardımı müsabiqəsinə 26 ictimai-siyasi qəzetdən sənəd təqdim edilib.

V.Səfərli, həmçinin bildirib ki, müsabiqəyə sənəd təqdim edən 25 ictimai-siyasi qəzet indiyə qədər də maliyyə yardımı müsabiqələrində iştirak edib və Fond tərəfindən maliyyələşdirilib. Müsabiqədə yeni iştirak edən "Nedelya" qəzetinin sənədlərində çatışmazlıqlar olduğundan, qəzetə maliyyə yardımının ayrılması məqsədəuyğun hesab edilmir.

İcraçı direktor, həmçinin deyib ki, 2019-cu ilin II rübündə olduğu kimi, ictimai-siyasi qəzetlərin 3 kateqoriyaya (gündəlik, günaşırı və həftəlik) bölünməsi və maliyyələşdirilməsi təklif olunur.

Sonra Müşahidə Şurasının üzvləri yayım və tirajla bağlı təqdim edilmiş sənədlər əsasında geniş müzakirələr aparıblar. Müzakirələr nəticəsində ictimai-siyasi qəzetlərin təklif olunan 3 kateqoriya üzrə maliyyələşdirilməsi məqsədəuyğun hesab edilib.

Müşahidə Şurasının üzvləri bu yanaşmanı qəzetlərin mənafeyinə tamamilə cavab verən optimal yanaşma kimi dəyərləndiriblər. Şuranın sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən - Bəhruz Quliyev, Əvəz Rüstəmov və Ayaz Mirzəyev Fondun maliyyə yardımının ictimai-siyasi qəzetlərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyətini qeyd ediblər.

Müzakirələrin sonunda sənədləri tələb olunan şərtlərə cavab verən 25 ictimai-siyasi (gündəlik, günaşırı və həftəlik) qəzetin maliyyələşdirilməsi ilə bağlı qərar qəbul edilib (Siyahı aşağıdakı cədvəldə təqdim olunur).

2019-cu ilin II yarısı üzrə maliyyə yardımı ayrılmış ictimai-siyasi qəzetlərin siyahısı

**I kateqoriya - Gündəlik (həftədə 5 dəfədən az olmayaraq çap olunan) ictimai-siyasi qəzetlər**

*"Bakı-Xəbər" qəzeti - 20000 manat*
*"Kaspi" qəzeti - 20000 manat*
*"Yeni Müsavat" qəzeti - 20000 manat*
*"Səs" qəzeti - 20000 manat*
*"Yeni Azərbaycan" qəzeti - 20000 manat*
*"Mövqe" qəzeti - 20000 manat*
*"Kaspiy" qəzeti - 20000 manat*

**II kateqoriya - Günaşırı (həftədə 3 dəfədən az olmayaraq çap olunan) ictimai-siyasi qəzetlər**

*"Həftə içi" qəzeti - 10000 manat*
*"Novoye Vremya" qəzeti - 10000 manat*
*"Azernews" qəzeti - 10000 manat*
*"525-ci qəzet" - 10000 manat*
*"Xalq Cəbhəsi" qəzeti - 10000 manat*
*"Paralel" qəzeti - 10000 manat*
*"Hürriyyət" - 10000 manat*
*"Olaylar" qəzeti - 10000 manat*
*"Palitra" qəzeti - 10000 manat*
*"Ədalət" qəzeti - 10000 manat*
*"Üç nöqtə" qəzeti - 10000 manat*
*"Azad Azərbaycan" qəzeti - 10000 manat*
*"Şərq" qəzeti - 10000 manat*

**III kateqoriya - Həftəlik ictimai-siyasi qəzetlər**

*"Oxu məni" qəzeti - 5000 manat*
*"Unikal" qəzeti - 5000 manat*
*"Hərbi And" qəzeti - 5000 manat*
*"Türküstan" qəzeti - 5000 manat*
*"The Business Times" qəzeti - 5000 manat*

# “Marafonçu” şoumen Əli Kərimlinin təxribatı baş tutmadı

Ötən gün AXCP-nin sədri Əli Kərimlinin saxlanılması əslində gözlənilən idi. Düzdür, AXCP sədrinə hüquq-mühafizə orqanları tərəfindən xəbərdarlıq edilib və o, sərbəst buraxılıb. Əvvəla onu deyək ki, bir siyasi partiyanın sədrindən çox sosial şəbəkələrdə bloqer fəaliyyəti göstərən Ə.Kərimlinin son vaxtlar “qonağı” olduğu bəzi internet tv-lərdə öz ampluasına sadiq qalaraq dövlətə, dövlətçiliyə qarşı şər-böhtan dolu çıxışları, respublikamızda süni gərginlik yaratmaq çağırışları cəmiyyətimiz tərəfindən ikrahla qarşılanır. Marginallaşmış dəstənin liderciyi olan Ə.Kərimli ictimaiyyət tərəfindən ikrahla, istehza ilə qarşılanmasını ört-basdır etmək üçün sosial şəbəkələrdən, necə deyərlər, sahəyə, daha doğrusu mehriban düşməni olan müsavatçıların qərargahına yenib. Müsavat Partiyasının qərargahında isə giya “siyasi motivlərlə” həbs olunan şəxslər üçün dəstək marafonu keçirilib. Təbii ki, bu qeyri-qanuni polisin müdaxiləsi ilə dayandırılıb. Bundan əvvəl isə Əli Kərimli ictimai asayişi kobud şəkildə pozan, qanunların tələblərinə riayət etməyən, polisə müqavimət göstərən və digər bu kimi qanunazidd əməllər törədən şəxslərə kəsilmiş cərimələrin ödənilməsinə guya yardım göstərmək məqsədilə “xeyriyyə marafonu” adı altında müxtəlif çağırışlar irəli sürmüş və kampaniya təşkil etməyə çalışmış, Müsavat Partiyasının qarşısında qanunsuz yürüş keçirilməsi barədə sosial şəbəkələrdə çağırışlar etmişdi. Dünən isə AXCP sədri ilə yanaşı, onun cangüdəni və marafon adı altında qanunsuz hərəkətlər edən bir neçə şəxs də saxlanılmışdı.

Anti-Azərbaycan şəbəkənin maşasına çevrilən antimilli ünsürlərin “lideri” olan Ə.Kərimli və onun ətrafındakı tör-töküntülərin bu hərəkətləri, marafonşouları cəmiyyətimiz tərəfindən nifrətlə qarşılanır. Məsələn, Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - icra katibi Əli Əhmədov bildirib ki, Əli Kərimlinin çağırışlar səsləndirməsi qanunazidd hərəkətdir: “Müxalifətçi partiyanın sədri Əli Kərimli törətdiyi qanunsuzluqlara görə haqqında müxtəlif cərimələr təyin olunmuş şəxslərə maddi dəstək göstərmək adı altında xeyriyyə marafonu keçirmək istəyir. Törətdiyi qanunazidd əməllərə görə haqqında cərimələnmək kimi məhkəmə hökmü olanlara bu formada dəstək göstərmək məqsədilə çağırışlar



səsləndirmək, marafon keçirmək qanunazidd hərəkətdir. Məqsəd insanlarda qanunun aliliyi prinsipinə, dövlət orqanlarına etimadsızlıq yaratmaqla asayişi pozmaq, qarşıqlıq yaratmağa cəhd göstərməkdir. Buna yol verilə bilməz və yol verilməməlidir”.

Ə.Əhmədov, həmçinin bildirib ki, müharibə vəziyyətində, bir milyon məcburi köçkünü olan ölkədə xeyriyyə aksiyası keçirmək üçün kifayət qədər səbəblər mövcuddur: “Yeni Azərbaycan Partiyası dəfələrlə belə aksiyalar keçirib. Azərbaycanda Silahlı Qüvvələrə Yardım Fondu var. Ən şərəfli, əhəmiyyətli və xeyirli xeyriyyə hərəkəti o olardı ki, Silahlı Qüvvələrə Yardım Fonduna dəstək məqsədilə xeyriyyə aksiyası keçirilsin. Mən xeyriyyə marafonu adı altında sabitliyi pozmaq istəyənlərə tutarlı cavab vermək üçün Yeni Azərbaycan Partiyasının üzvlərini Azərbaycanın Silahlı Qüvvələrinə Yardım Fonduna dəstək üçün aksiyaya qoşulmağa dəvət edirəm. Özüm isə işlədiyim idarənin mühasibatına aylıq əməkhaqqımın 50 faizinin həmin fonda köçürülməsi barədə müraciət edirəm. Gəlin Ordumuza dəstək olaq”.

Yeri gəlmişkən, dünən Baş Prokurorluq və Daxili İşlər Nazirliyi (DİN) AXCP sədri Əli Kərimlinin saxlanılması ilə bağlı məlumat yayıblar. Birgə məlumatda bildirilib ki, iyunun 28-də AXCP sədri Əli Kərimli Binəqədi rayonu ərazisində yerləşən Müsavat Partiyasının qərargahının qarşısından qanunsuz yürüş keçirilməsi barədə sosial şəbəkələrdə yaydığı çağırışla əlaqədar Binəqədi Rayon Polis İdarəsinə dəvət edilib:

“Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmamış ərazilərdə mitinq və qanunla müəyyən edilmiş qaydada təşkil edilməyən toplantının keçirilməsinə cəhdin “Sərbəst toplaşmaq azadlığı haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə zidd olduğu onun nəzərinə çatdırılıb. İctimai asayişin pozulmasına yönələn belə qanunsuz hərəkətlərin qarşısı bundan sonra da qanunvericiliklə müəyyən edilmiş qaydada alınmaqla, təşkilatçıların məsuliyyətə cəlb olunacaqları barədə “Prokurorluq haqqında” qanunun tələblərinə uyğun olaraq ona rəsmi xəbərdarlıq edilib və sərbəst buraxılıb”.

Deyəsən, anti-Azərbaycan dairələrin maşası və ərköyün ələltısı olan qrant, kreslo, hakimiyyət naminə bütün ali dəyərləri ayaqlar altına atan AXCP sədri Ə.Kərimli belə marafonlarla gündəmdə qalmağa çalışsa da, heç nəyə nail ola bilmədi. Yenə rəzil, rüsvay olaraq, gülüş hədəfinə çevrilərək səhəni tərk etdi...

**Zahid Rza,**
***“İki sahil”***

## Aydın Quliyev: Əli Kərimlinin hərəkətləri ittiham olunmalıdır



“Artıq bir neçə gündür ki, AXCP sədri Əli Kərimli və həmin partiyanın funksionerləri və fəalları ictimai asayişi kobud şəkildə pozan, qanunların tələblərinə riayət etməyən, polisə müqavimət göstərən və digər bu kimi qanunazidd əməllər törədən şəxslərə kəsilmiş cərimələrin ödənilməsinə guya yardım göstərmək məqsədilə ”xeyriyyə marafonu” adı altında müxtəlif çağırışlar irəli sürür, kampaniya təşkil edirlər”. Bunu SİA-ya açıqlamasında ”Bakı Xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

Baş redaktorun sözlərinə görə, AXCP sədri Əli Kərimlinin və ətrafının öz siyasi məqsədlərini həyatı keçirmək üçün xeyriyyəçilik adından istifadə etmələri qətiyyən yolverilməzdir: “Bu halda siyasətin də dəyərləri məhv olub gedir və aşılanır. Beləcə xeyriyyəçilik deyilən bir əməlin çox dəyərli prinsipləri aşılanıb ortadan çıxır. Ona görə də siyasi mənafelərlə, siyasi məqsədlərlə xeyriyyəçilik dəyərlərini bir-biri ilə əlaqələndirmək və xeyriyyəçilik adı altında siyasi məqsədlər həyata keçirmək cəhdi yolverilməzdir və bütün hallarda nifrətə layiqdir. Konkret halda isə AXCP sədri Əli Kərimlinin saxlanılması məhz “xeyriyyə marafonu” adı altında siyasi məqsədlərinin həyata keçirilməsi ilə bağlı olduğuna görə qətiyyən yolverilməzdir. Düşünürəm ki, bu halda hüquq mühafizə orqanları lazım olan addımları atdıqlarına görə, müəyyən əsaslara malikdirlər. Bu gün Azərbaycanda möhkəm bir sabitlik var. Bu sabitliyin hazırkı şəraitdə pozulması bütün Azərbaycan xalqının və dövlətinin mənafelərinin ziddinədir. Aydın məsələdir ki, sabitliyi pozmağa cəhd göstərənlərin Azərbaycan cəmiyyəti və dövlətçiliyi ilə bağlı hər hansı məqsədləri ola bilməz. Ona görə də “xeyriyyə marafonu” adı altında əslində sabitliyin pozulmasına yönəlmiş hərəkətlər təqdirəlayiq deyil. Bu hərəkətlər ittiham olunmalıdır”.

## Kamran Bayramov: Ölkəmiz yeni hədəflərə doğru irəliləyir

“Azərbaycan Prezidenti İlham Əliyevin “Minimum aylıq əməkhaqqının artırılması haqqında” 18 iyun 2019-cu il tarixli Sərəncamı dövlətimizin başçısının ölkə əhalisinin rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi uğurlu sosial siyasətin davamıdır. Sərəncam bir daha göstərdi ki, dövlətimizin başçısının siyasətinin mərkəzində Azərbaycan vətəndaşı və onun rifahı dayanır”. Bu fikirləri Milli Məclisin deputatı Kamran Bayramov deyib.

K.Bayramov bildirib ki, Sərəncama əsasən, Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılacaq. Bu da ölkəmizdə minimum əməkhaqqının məbləğinin yaşayış minimumunu 40 faizədək üstələməsi deməkdir. Sevindirici haldır ki, bu qərar bir çox insanlarımıza şamil ediləcək. Belə ki, minimum əməkhaqqının artımı birbaşa olaraq 950 minədək vətəndaşı, o cümlədən dövlət sektorunda işləyən 600 min insanı, özəl sektorda çalışan 350 min insanı əhatə edəcəkdir.

K.Bayramov qeyd edib ki, bu Sərəncam ölkə vətəndaşlarının sosial rifahının yüksəldilməsinin cənab Prezidentin həyata keçirdiyi sosial-iqtisadi siyasətin nə dərəcədə uğurlu olduğunu və ümumiyyətlə, daxili siyasətin prioritet istiqaməti olduğunu bir daha göstərir, habelə bu siyasətin davamlı olacağına işarə verir. Belə ki, bundan əvvəl dövlət başçısının cari il fevralın 8-də imzaladığı Sərəncamla da minimum əməkhaqqı 130 manatdan 180 manata çatdırılmış, bu artım 600 minədək insanı əhatə etmişdi. Prezident İlham Əliyevin uğurlu sosial islahatlar proqramı çərçivəsində təkcə 2019-cu il ərzində minimum əməkhaqqının,



demək olar ki, iki dəfəyə yaxın artırılması əhalinin rifahına ciddi dəstək kimi qəbul olunmalıdır.

Milli Məclisin deputatı vurğulayıb ki, bu bir daha onu göstərir ki, Azərbaycandakı əmin-amanlığın, vətəndaş həmrəyliyinin, səfərbər olmuş cəmiyyətin kökündə dayanan əsas səbəb xalq-hakimiyyət birliyidir, Azərbaycan Prezidentinin məhz xalqın mənafeyindən irəli gələn siyasət həyata keçirməsidir: “Bunlar Azərbaycanı gücləndirir. Ölkəmiz yeni hədəflərə doğru irəliləyir. Prezident İlham Əliyevin Azərbaycan vətəndaşlarının sosial rifahının daha da möhkəmləndirilməsi istiqamətində atdığı bu addımlar cəmiyyətimizdə böyük ruh yüksəkliyi ilə qarşılanıb”.

### İlham Məmmədov: Ölkəmizin iqtisadiyyatının dinamik inkişafı uğurla davam edir



“Ölkəmizin iqtisadiyyatının dinamik inkişafı uğurla davam edir”. Bu fikri Milli Məclisin deputatı İlham Məmmədov deyib.

İ.Məmmədov bildirib ki, bu gün Azərbaycanda təbii-iqtisadi imkanlardan istifadə etməklə çox güclü və dayanıqlı bir iqtisadiyyat formalaşıb. Onun sözlərinə görə, ölkənin makroiqtisadi göstəriciləri hər il artımla müşahidə olunur.

“Məhz Prezident İlham Əliyevin yürütdüyü siyasi kurs yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan dövlətinin bütün sahələrdə yüksək göstəricilərə nail olmasında müstəsna rol oynayıb. Milli inkişaf modelinin uğurla tətbiqi və hədəflənən məqsədlərə çatılması, sosial-siyasi islahatların ardıcıl qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, həmçinin hüquqi dövlət quruculuğu yolunda atılan addımlar Azərbaycanın hər sahədə dinamik inkişafını təmin edən faktorlardır”- deyə, deputat qeyd edib.

# 2019: sosial islahatlar ili, iqtisadi artımın yüksək templərlə davam etdiyi dövr



**Prezident İlham Əliyevin 2019-cu ili "sosial inkişaf ili" kimi səciyyələndirməsi ölkə vətəndaşlarında öz həyatlarına, gələcəklərinə böyük bir inam yaradan ciddi amil idi. Ən başlıcası isə cənab Prezidentin imzaladığı sosial vədlərin sürətlə və ardıcıllıqla reallaşması insanlarda öz rəhbərinə olan etimadı daha da artırmışdı. Xatırladaq ki, 2019-cu ilin ilk yarısında Prezident İlham Əliyevin verdiyi Sərəncam və fərmanların 75-80 faizi məhz sosialyönümlü olmuşdur. Burada ən diqqət çəkən məqam, hətta deyərdim ki, xarici ölkə iqtisadçılarının da heyranlığına səbəb olan məsələ 6 ay ərzində minimum əmək haqqının iki dəfə artırılmasıdır.**

Təqdirəlayiq haldır ki, Prezident İlham Əliyevin 2019-cu ilin iyunun 18-də minimum əməkhaqqının 250 manat məbləğində müəyyən edilməsi haqqında verdiyi Sərəncam nəticəsində 950 min insanın maaşı artacaq. Bu Sərəncam 350 min nəfər özəl sektorda, həmçinin 600 min dövlət sektorunda çalışan ölkə vətəndaşlarına şamil ediləcəkdir. Dövlət sektorunda çalışan və Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alanların da orta əməkhaqqı təxminən 270 manatdan 350 manata qədər artacaq. Bütövlükdə minimum əməkhaqqının artırılması üçün dövlət büdcəsindən 780 milyon manat əlavə vəsait xərclənəcək.

Bu gün Azərbaycanda minimum əməkhaqqı yaşayış minimumundan 40 faiz yuxarıdır. Bu da o deməkdir ki, minimum əməkhaqqının artırılması ilə insanlar yoxsulluq həddindən uzaqlaşacaqlar. Bu, əhali arasında sosial bərabərsizliyin qarşısını alır və sosial ədaləti daha da gücləndirir. Minimum əməkhaqqı artanda azgəlirli insanların maaşları da yüksəlir.

Bundan başqa, dövlət qulluqçularının, müəllimlərin, hüquq mühafizə orqanlarının əməkdaşlarının əməkhaqlarının 40 faiz artırılması Azərbaycan vətəndaşlarının sosial rifahının yaxşılaşmasına böyük töhfədir. Digər mühüm məsələ odur ki, bu Sərəncam dövlət sektoru ilə yanaşı, özəl sektorda da xeyli sayda insanın əməkhaqlarının artmasına səbəb olacaq.

Prezident İlham Əliyev tərəfindən imzalanan bu inqilabi sərəncamlar bir daha sübut edir ki, ölkədə aparılan siyasət sosialyönümlüdür, bu addımlar vətəndaşların rifahının yüksəldilməsinə, sosial müdafiəsinin gücləndirilməsinə yönəlib. Ümumiyyətlə, bu il imzalanan sosial paketlər 3 milyon insanı əhatə edir və onların maliyyə tutumu isə 3 milyard manatdan da çoxdur.

Sürətli şəkildə, bir-birinin ardınca həyata keçirilən islahatlar və ölkənin imkanlarının genişlənməsi ilə sosial layihələrin sistemli tətbiqi Prezident İlham Əliyevin strateji sosial strateji planlarından xəbər verir. Yəni ölkənin iqtisadi qüdrətinə hesablanan strateji siyasət sosial paketlərin icrası ilə müşayiət olunur. Vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsi üçün cari ilin birinci yarısında iki böyük sosial paketin tətbiqi isə iqtisadi islahatların ən qısa müddətdə necə böyük bəhrə verməsinin əyani sübutudur".

Yüzlərlə hərbçinin, qaçqın və məcburi köçkünün mənzillə təminatı, 12,5 min şəhidin vərəsəsinə 11 min manat birdəfəlik ödəniş, üstəlik manatın məzənnəsinin dəyişməsi ilə yaranan fərqi bütövlükdə dövlətin üzərinə götürməsi və problemli kreditlərə birdəfəlik nöqtə qoyulması bir neçə ay içərisində həyata keçirilən layihələrin sadəcə görünən tərəfidir.

İqtisadçılar problemli kreditlərin həlli məsələsində fərqin 3 hissəyə bölünməsini - yəni bir hissəni krediti götürənin, digər hissəni bankın, 3-cü hissəni isə dövlətin öz üzərinə götürməsini təklif edirdilər və bunu dünyada ən uğurlu model kimi təqdim edirdilər.

Ancaq Prezident İlham Əliyev dünyada analoqu olmayan və sözün həqiqi mənasında nümunə göstəriləcək bir Sərəncama imza atdı: dolların bahalaşması ilə kreditlərdə yaranan bütün fərqi tam şəkildə dövlət qarşıladı, üstəlik həmin zaman ödənişi həyata keçirmək imkanında olan insanların artıq ödənişləri geri qaytarıldı və faizlər tamamilə sıfırlandıqdan sonra kredit öhdəliyini yerinə yetirmək üçün insanlara 5 il müddətinə, birinci il 0 faiz, digər illərdə isə cəmi bir faiz olmaqla vəsait ayrıldı. Bu, Azərbaycanın, şəxsən Prezident İlham Əliyevin öz vətəndaşına verdiyi dəyərin bariz nümunəsidir".

Xüsusi qeyd etmək lazımdır ki, iyunun 18-də imzalanan sərəncamlar artıq əməkhaqqının 10-15 faizlik deyil, 40-50 faizlik artımını nəzərdə tutur. Bu, elə də sadə rəqəm deyil, əksinə ölkə vətəndaşlarının maddi durumlarının bir xeyli yaxşılaşması deməkdir. Ən önəmlisi isə odur ki, bu sərəncamlardan hər bir Azərbaycan ailəsi öz payını artıqlaması ilə ala biləcək. Bu bir faktdır ki, məhz Prezidentin 18 iyun Sərəncamı ilə Azərbaycan Əhalinin rifah halının yüksəklik reytinqinə görə MDB məkanında ikinci yerdədir.

Bu gün sosial həyatda vətəndaşların dövlətinə və Prezidentinə güvənməsi çox qürurverici hisslərdir. Məhz bu mənada fərəh hissi ilə deyə bilərik ki, Prezident İlham Əliyevin həyata keçirdiyi bütün siyasət vətəndaşın dövlətinə güvənməsi, ona arxalanmasına səbəb olub. Heç də təsadüfi deyil ki, bu böyük inam və geniş etimad hazırda cənab İlham Əliyevin bir siyasətçi, bir qətiyyətli dövlət başçısı kimi reytinqini daim yüksəldir, xalqın öz liderinə inamını davamlı olaraq möhkəmlədir.

Əslində, Prezident İlham Əliyevin son 6 ayda böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı sərəncamlar, sosial sahədə qəbul olunmuş qərarlar miqyasına, əhatə dairəsinə görə inqilabi qərarlardır. Təbii ki, sosial siyasətin belə uğurla aparılması iqtisadi qüdrətimizin davamlı artmasından qaynaqlanır. Yeni Azərbaycan dövlətinin sosial siyasətinin fəlsəfəsi iqtisadi inkişafın nəticələrini əhalinin rifah halını yüksəltməyə yönəltməkdir. Bu prinsip hər gün daha geniş şəkildə davam etdirilir. Xüsusən ötən illərdə dünyada hökm sürən maliyyə böhranı bir çox ölkələrdə sosial problemləri kəskinləşdirdiyi halda, ölkəmizdə sosial layihələr və iqtisadi islahatların icrası zəifləmədi, hətta əvvəlki sürətlə davam etdirildi.

Hər bir dövlət başçısının ən ali vəzifə kürsüsündə atacağı ilk müdrik və qətiyyətli addım onu hakimiyyətə gətirən xalqın rifah halını yüksəltməkdir. Prezident İlham Əliyev bu ali vəzifədə daim həmin önəmli amili özünün sosial siyasətinin əsas prioriteti elan edib. Açıq və aydın şəkildə görünən və hiss edilən odur ki, cənab İlham Əliyev ən yüksək məqamda olduğu müddətdə daim sadə xalq təbəqəsindən fiziki və mənəvi anlamda heç vaxt uzaqlaşmayıb. Nəinki onların dərdini dinləyib, qayğıları ilə maraqlanıb, eyni zamanda, dərhal çıxış yolları axtararaq diqqət və qayğısını reallığa çevirib.

Bir sözlə, ölkəmizin başçısının da vurğuladığı kimi, əgər 2017-ci il iqtisadi sabitləşmə, 2018-ci il isə dərin iqtisadi islahatlar ili olubsa, 2019-cu il həm sosial islahatlar ili, həm də iqtisadi artımın yüksək templərlə təmin ediləcəyi dövr kimi tarixə düşəcək.

✍ **Elçin Zaman,**
***"İki sahil"***

---

Baş Prokurorluq və DİN:

## İctimai asayişin pozulmasına yönələn qanunsuz hərəkətlərin qarşısı qanunvericiliyə uyğun qaydada alınacaq





İyunun 28-də AXCP sədri Əli Kərimli Binəqədi rayonu ərazisində yerləşən "Müsavat" Partiyasının qərargahının qarşısından qanunsuz yürüş keçirilməsi barədə sosial şəbəkələrdə yaydığı çağırışla əlaqədar Binəqədi Rayon Polis İdarəsinə dəvət edilib.

Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmamış ərazilərdə mitinq və qanunla müəyyən edilmiş qaydada təşkil edilməyən toplantının keçirilməsinə cəhdin "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə zidd olduğu onun nəzərinə çatdırılıb. İctimai asayişin pozulmasına yönələn belə qanunsuz hərəkətlərin qarşısının bundan sonra da qanunvericiliklə müəyyən edilmiş qaydada alınmaqla, təşkilatçıların məsuliyyətə cəlb olunacaqları barədə "Prokurorluq haqqında" qanunun tələblərinə uyğun olaraq Ə.Kərimliyə rəsmi xəbərdarlıq edildikdən sonra o, sərbəst buraxılıb.

## Ekologiya və Təbii Sərvətlər naziri və müavinləri vətəndaşlarla görüşüblər



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev iyunun 28-də Quba şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Quba və Qusar rayonlarından olan vətəndaşları qəbul edib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbuldan əvvəl Muxtar Babayev və Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Həmin gün Ekologiya və Təbii Sərvətlər nazirinin müavinləri Firdovsi Əliyev Xaçmaz, Rauf Hacıyev isə Siyəzən rayonlarından olan vətəndaşlarla görüşüb.

Qəbullar zamanı meşələrin qorunması, biomüxtəliflik, hidrometeorologiya, ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi, ətraf mühitin monitorinqi və digər məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib.

Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərləri üzrə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

## Sutka ərzində təmas xəttində nisbi sakitlik müşahidə olunub



Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

# Bizim yeganə istəyimiz torpaqlarımızın işğaldan azad olunmasıdır

## MİLLİ MƏCLİSİN DEPUTATI ELMAN MƏMMƏDOVUN WWW.YAP.ORG.AZ SAYTINA MÜSAHİBƏSİ



***- Elman müəllim, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin diplomatik yolla həlli prosesinin hazırkı durumu haqqında nə deyə bilərsiniz?***

- Azərbaycan öz xarici siyasətini, ikitərəfli və çoxtərəfli əlaqələrini sırf beynəlxalq hüquq normaları, milli maraqları əsasında davam etdirir. Bunun nəticəsidir ki, Azərbaycanın beynəlxalq əlaqələri daha da genişlənib, ölkəmizin tərəfdaşlarının sayı artıb. Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində qətiyyətli mövqeyini, prinsipial siyasətini davam etdirir.

Son zamanlar beynəlxalq ictimaiyyət tərəfindən Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bəyanatların səsləndirilməsi, bu istiqamətdə mühüm sənədlərin qəbul olunması Azərbaycanın haqlı mövqeyinin dəstəklənməsini ifadə edir. Ermənistan tərəfinin beynəlxalq hüquq normalarına zidd olan iddiaları isə heç bir nəticə vermir, dünya ictimaiyyəti bu cür iddiaları qəbul etmir. Bütün hallarda Azərbaycanın ərazi bütövlüyü və suverenliyi müzakirə mövzusu deyil. Azərbaycanın mövqeyi qəti və birmənalıdır. Bu gün hərtərəfli inkişafımızda əldə etdiyimiz uğurlarla yanaşı, informasiya müstəvisində də aktivliyimiz müsbət mənada nəzərə çarpır. Bu, bizim informasiya məkanında əldə etdiyimiz uğurların və ölkə rəhbərinin düzgün, uğurlu siyasətinin nəticəsində mümkün olub.

***- Bir neçə gün öncə ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü keçirildi. Sizcə, görüşdən hansısa nəticə gözləmək olarmı?***

- Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqton görüşündən elə də ciddi açıqlamalar olmadı. Həmişəki kimi bu görüşdə də ümumi detallara toxunuldu. Bildirildi ki, tərəflərin mövqeləri arasında ciddi fərq mövcudluğu var və bu qalmaqda da davam edir. Orada ABŞ tərəfindən maraqlı və təəccüblü açıqlama o idi ki, görüş çox məhsuldar keçdi. Yəni bunu nə bizim, nə də erməni tərəfinin XİN rəhbəri demədi. Axı bu görüşün məhsuldar keçdiyini nə ilə izah etmək olar? Çünki ortalıqda heç bir nəticə yoxdur. Sadəcə olaraq, görüşdə tərəflər öz mövqeyini ortaya qoydu.

Azərbaycan tərəfinin birmənalı olaraq mövqeyi budur ki, ərazilərimiz işğaldan azad olunmalıdır, ərazi bütövlüyümüz təmin olunmalıdır və məcburi köçkünlərimiz, qaçqınlarımız öz doğma yurdlarına qayıtmalıdır. Ermənilərin isə mövqeyi bundan ibarətdir ki, heç bir ərazini işğaldan azad etmək fikrində deyillər. Belə olan təqdirdə, burada hansı məhsuldarlıqdan söhbət gedə bilər? Əgər bu görüşlər elə-belə davam edəcəksə hesab edirəm ki, bunun bizə heç bir xeyri yoxdur. O xeyiri yalnız düşmən görür. Çünki düşmən ərazilərimizi işğal edib və orada oturub.

Hətta Vaşinqton görüşündə bir fikir də səsləndi ki, biz cəbhə bölgəsinin təmas xəttində gərginliyin azadılmasını alqışlayırıq, onun tərəfdarıyıq və xalqları sülhə hazırlamaq istiqamətində iş aparırıq. Bu fikirlərin ikisi də erməninin xeyrinədir. Çünki bu gün işğalçı bizim ərazimizdə oturub. Digər tərəfdən isə axı, mən necə sülhə hazır olmalıyam ki, mən soyqırıma məruz qalmışam və ərazilərim işğal altındadır. Təbii ki, ermənilər xalqların sülhə hazırlanmasına razıdır. Çünki düşmən dövlət istədiyi qədər torpaq işğal edib. Biz isə o zaman sülhə hazırlaşmalıyıq ki, bizim ərazi bütövlüyümüz təmin olunsun, biz doğma yurdumuza qayıdaq. Əgər sülhə gedən yol müharibədən keçirsə, biz ona hazır olmalıyıq.

***- İyunun 26-da Azərbaycan Silahlı Qüvvələri Günü qeyd olundu. Ordumuzun döyüş hazırlığını necə dəyərləndirirsiniz?***

- Azərbaycanda ordu quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. İnkaredilməz reallıqdır ki, milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər ərzində bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda çox sürətlə və yüksək səviyyədə aparılan ordu quruculuğu işi artıq öz bəhrəsini verib. Bunun qanunauyğun nəticəsi kimi, Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib.

Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Yəni ölkəmiz güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir hərbi strukturu sayılır.

O da qeyd edilməlidir ki, ötən müddət ərzində hərbi hissələrin komplektləşdirilmə faizi və keyfiyyəti yüksək səviyyədə olub, əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan, mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə komplektləşdirilməsi ardıcıl şəkildə həyata keçirilib. Bunlarla yanaşı, aviasiyada hava hücumundan müdafiə üzrə yeni texnikaların alınması, mövcud texnikanın modernləşdirilməsi nəticəsində hissə və bölmələrin müxtəlif hava şəraitində döyüş fəaliyyəti imkanları artırılıb. Eyni zamanda, Hərbi Dəniz Qüvvələrinin döyüş potensialının gücləndirilməsi istiqamətində də məqsədyönlü işlər görülməkdədir.

Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin xüsusi diqqəti sayəsində Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının, silah-sursat arsenalının müasirləşdirilməsi istiqamətində çox mühüm və tarixi işlər görülüb. Şübhəsiz ki, güclü ordumuz işğal olunmuş torpaqlarımızı azad etmək iqtidarındadır.

# BBU-da "Karyerada ilk addım" devizi altında əmək yarmarkası




İyunun 28-də Bakı Biznes Universitetində (BBU) "Məzun Günü" qeyd edilib.

"Məzun - 2019" proqramı çərçivəsində keçirilən tədbiri giriş sözü ilə açan rektor, professor İbad Abbasov bildirib ki, bu il universiteti bitirmiş 290 bakalavrdan 146-sı Biznes və Menecment, 144-ü isə İqtisadiyyat və İdarəetmə fakültələrində təhsil alıblar. Həmçinin 45 magistr da bu il məzun olub.

Bundan başqa, BBU-da tələbə-məzunların əmək bazarına inteqrasiyasını nəzərdə tutan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən "Karyerada ilk addım" devizi altında əmək yarmarkası təşkil edilib. Yarmarkada iştirak edən tələbələr və məzunlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən təqdim edilən iş yerləri ilə maraqlanıblar, müvafiq sənədlərini təqdim ediblər.

Yarmarkada Bakı şəhərinin rayonlarının məşğulluq mərkəzləri ilə əməkdaşlıq edən 50-yə yaxın müəssisədən 44-ü qeyri-dövlət, digərlərini isə dövlət müəssisələri təşkil edib. Ümumilikdə tədbirdə iştirak edən müəssisələr tərəfindən 272-dən artıq boş iş yeri təqdim edilib. Təqdim olunan boş iş yerlərinin 230-u qeyri-dövlət, digərləri isə dövlət müəssisələrinə aid olub .Təqdim olunan vakant iş yerlərində maksimum əmək haqqı 1200 manat, minimum əmək haqqı isə 180 manat təşkil edib. Bununla da yarmarkaya çıxarılan iş yerləri arasında ən yüksək əmək haqqı dövlət sektorunda SOCAR-ın İnsan Resursları Departamentinin təqdim etdiyi "böyük mühəndis" (layihələr, təchizat, servis üzrə), qeyri-dövlət sektorunda isə "Azconstruction" MMC-də "mühəndis-elektrik" vakansiyasına aid olub. Ən aşağı əmək haqqı isə dövlət sektorunda Ekologiya İnstitutunda "laborant", qeyri-dövlət sektorunda isə "Molbulak" Bank Olmayan Kredit Təşkilatında "kiçik kredit mütəxəssisi" vakansiyalarını əhatə edib.

Boş iş yerləri ilə tanış olan BBU-nun rektoru İbad Abbasov əmək haqları ilə maraqlanıb, təşkilatlara məzunların potensialından onların hələ 2-3-cü kurslarda təhsil aldıqları müddətdən başlayaraq istifadə etmələrini tövsiyə edib. Bildirib ki, məzunları təcrübə keçmələrinin vacibliyini əsas gətirməklə aşağı əmək haqqı ilə qiymətləndirmək əvəzinə onların hələ 2-3-cü kurslarda təhsil aldıqları müddətdə könüllü formada işə cəlb edilməsi daha məqsədəuyğundur. Rektor vurğulayıb ki, belə halda həmin tələbələr artıq məzun olduqları zaman daha yüksək əmək haqqı ilə işlə təmin olunmaq, müəssisələr isə daha asan yolla təcrübəli kadrlar cəlb etmək imkanı əldə edə bilərlər.

İ.Abbasov bu prosesin universitetlərin də xeyrinə olduğunu qeyd edib. Bildirib ki, tələbələrin aşağı kurslardan başlayaraq təcrübə keçmələri universitetlərin tədris prosesindəki çatışmazlıqların aradan qaldırılmasına şərait yaradır ki, bu da daha yüksək səviyyəli kadrların hazırlanmasına imkan verir.

Tədbirin növbəti hissəsində respublikamızın tanınmış incəsənət xadimlərinin və BBU-nun bədii özfəaliyyət kollektivi üzvlərinin iştirakı ilə geniş konsert proqramı nümayiş etdirilib.

**Ceyhun Piriyev,**
***"İki sahil"***

# KURSUN DİNLƏYİCİLƏRİNƏ SERTİFİKATLAR TƏQDİM OLUNUB





SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsində (TTSİ) ISO/IEC 17025:2017 "Sınaq və kalibrasiya laboratoriyalarının yeterliliyi üçün ümumi şərtlər standartı" kursunun dinləyicilərinə sertifikatların təqdimetmə mərasimi keçirilib.

Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov mərasimdə çıxış edərək kursu uğurla bitirən dinləyiciləri təbrik edib, onlara çalışdıqları sahədə uğurlar arzulayıb.

SOCAR-ın Ekologiya İdarəsinin rəisi Azər Əliyev və Türk Standartları İnstitutunun Azərbaycan Nümayəndəliyinin rəhbəri Gülhan Arzu Yüzereroğlu çıxışlarında kursun əhəmiyyətindən, dinləyicilərin əldə etdikləri yeni bilik və məlumatların onların gələcək fəaliyyətlərindəki rolundan bəhs ediblər.

Kursda iştirak etmiş Ekologiya İdarəsinin 18 nəfər və Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin 11 nəfər mütəxəssisinə sertifikatlar təqdim edilib.

Qeyd edək ki, ISO/IEC 17025:2017 "Sınaq və kalibrasiya laboratoriyalarının yeterliliyi üçün ümumi şərtlər standartı" kursunun məqsədi SOCAR-ın laboratoriyalarında tətbiq olunan İSO/IEC 17025:2017 "Sınaq və kalibrasiya laboratoriyalarının yeterliliyi üçün ümumi şərtlər" beynəlxalq standartının qurulması, idarəetmənin planlaşdırılması və tətbiq edilməsi, eləcə də texniki şərtlərin müəyyən edilərək nəzarət edilməsi üçün iştirakçılara yeni məlumatlar verməkdən və onların biliklərini təkmilləşdirməkdən ibarətdir.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Heydər Əliyev adına Neft Emalı zavodu

**səviyyəölçənlərə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (17036-19/A) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 23 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 (tələb olunan surətlərin sayı) surəti olmaqla 30 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dillərində əldə etmək istəyənlər 236 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: IBAZAZ2X.
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: IBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account\IBAN: AZ28IBAZ38110018409306332120 (USD)
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: IBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 (EUR)

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Bank təminatı:***
* İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-dək məbləğdən aşağı olmamalıdır.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5% məbləğində müəyyənləşdirilir.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 1 ay ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1060, Bakı şəhəri, Nizami rayonu,
O.Vəliyev küçəsi 1, 3-cü inzibati bina
**Əlaqələndirici şəxs:** Quliyeva Sona
Maddi-texniki təchizat şöbəsinin mühəndisi
+994 12 521 00 00 Daxili: 17998
+994 12 521-23-51.
Sona.Guliyeva@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 30 iyul 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 16:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**SOCAR-ın Satınalmalar Komitəsi**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Qaz İxrac" İdarəsi

**İzolyasiya lenti və praymerə olan tələbatı təmin etmək məqsədilə açıq satınalma müsabiqəsi (22016-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 22.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 29.07.2019-cu il, Bakı vaxtı ilə saat 11.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ingilis dilində əldə etmək istəyənlər üçün 236 manat (ƏDV ilə birlikdə), və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 10 (on) % məbləğində müəyyənləşdirilir.***

***V. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 30 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Rövşən Əliyev, 19.

**Əlaqələndirici şəxs:**
Heydərov Orxan (soyadı və adı).
Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi (struktur bölmənin və vəzifənin adı)
+ (994)012 521 07 00 (22091) (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
Mob: +(994)50 842 20 91
orxan.heydarov@socar.az (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 29.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Qaz İxrac" İdarəsinin Satınalmalar qrupu**

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Neftqaztikinti Tresti

**Korroziyaya qarşı mühafizə işlərinin yerinə yetirilməsi üçün tələb olunan avadanlıq və ehtiyat hissələrinə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25118-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 23.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifləri bir əsli və bir surəti olmaqla 30.07.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 118 AZN (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsini 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Xüsusi qeyd:***

• Müsabiqə üzrə nəzərdə tutulmuş avans məbləği təklifin dəyərinin 50%-dək olması tövsiyyə edilir.
• Nəzərinizə çatdırırıq ki, müsabiqə təklifi üzrə təqdim edilən avans məbləği 50%-dən yuxarı olan təkliflər SOCAR-ın Satınalmalar Komitəsi tərəfindən təsdiq edilmiş qərara əsasən qəbul edilə bilər.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Rövşən Feyzullayev
Maddi-Texniki Təchizat və Marketinq şöbəsinin mühəndisi
Tel: +994 50 842 52 52
Tel: +994 55 790 91 81
Elektron ünvan: rovshen.feyzullayev@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 30.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da, elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Neftqaztikinti Tresti

**Müxtəlif ölçülü tikişsiz polad borulara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25126-19) elan edir.**

***Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 23.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***I. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 30.07.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***II. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 590 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

**Hesab nömrəsi:**

**Azərbaycan Beynəlxalq Bankı ASC,
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic
AZ38IBAZ38010019449306332120,
Customer Service Department
VÖEN: 9900003871,
SWIFT: İBAZAZ2X
Müştəri xidməti Departamenti,
Nizami str., 67
Kod: 805250,
Phone: (+99450) 493-68-23
Müxbir hesab:
AZ03NABZ01350100000000002944,
Beneficiary: State Oil Company of Azerbaijan Republic
VÖEN: 9900001881,
TAX İD: 9900003871SWIFT BIK:
İBAZAZ2X.
Account No:
AZ23IBAZ38110018269306332120
Intermediary Bank: Commerzbank AG,
Frankfurt am Main Intermediary Bank: Deutsche Bank Trust Company Americas, New York
S.W.I.F.T: COBADEFFS.
W.I.F.T: BKTRUS33ACC # 400 88 660 3001ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic
"Customer Service Department Beneficiary Bank:
The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X SWIFT:
İBAZAZ2X Beneficiary:
State Oil Company of Azerbaijan Republic Beneficiary:
State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
TAX İD: 9900003871
Account No:
AZ08IBAZ38110019789306332120
EURAccount \ IBAN
AZ28IBAZ38110018409306332120
USD***

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***III. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin yerinə yetirilməsi 90 gün müddətinə tələb olunacaq.

**Bank təminatı:**

İddiaçı 40000 (qırx min) AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta (ABŞ dolları və ya Avro) məbləğində müsabiqə təklifinin qüvvədə qalması üçün bank təminatı təqdim etməlidir.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.
* Müsabiqə üzrə nəzərdə tutulmuş avans məbləği təklifin dəyərinin 30%-dək olması tövsiyyə edilir.

Nəzərinizə çatdırırıq ki, müsabiqə təklifi üzrə təqdim edilən avans məbləği 50%-dən yuxarı olan təkliflər SOCAR-ın Satınalmalar Komitəsi tərəfindən təsdiq edilmiş qərara əsasən qəbul edilə bilər.

**Satınalan təşkilatın ünvanı:**

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Anar İsmayilov
Maddi-Texniki Təchizat və Marketinq şöbəsinin böyük mühəndisi
Telefon nömrəsi: +994 12 521-07-67
Mobil nömrəsi: +994 50 292 80 85
Elektron ünvan: anar.k.ismayilov@socar.az

***IV. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***V. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 30.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VI. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

# Görkəmli siyasi xadim, tanınmış alim

**XX əsrdə Naxçıvanın muxtariyyətini əldə etməsi bir çox tarixi mərhələlərdən keçmişdir. Çar hökumətinin 10 aprel 1840-cı il islahatına əsasən, 1841-ci il yanvarın 1-də Gürcüstan-İmeretiya quberniyasının tərkibində Naxçıvan qəzası yaradılmışdı. Mərkəzi Naxçıvan şəhəri olan Naxçıvan qəzası 1920-ci ildə yaradılmış Naxçıvan Sovet Sosialist Respublikasının, 1923-cü il fevralın 27-dən Naxçıvan ölkəsinin (diyarının), 1924-cü ildən isə Naxçıvan MSSR-in tərkibinə daxil olub və 1929-cu ildə ləğv edilib.**

Muxtariyyətin qazanılması ərəfəsində və qazanıldığı dövrdə naxçıvanlılar hər sahədə ciddi mübarizə aparmışlar. Belə ki, 1918-ci illərdə azğın düşmənlə - erməni daşnakları ilə qəhrəmanlıqla döyüşən naxçıvanlılar, sonralar bir çox sahələrdə, o cümlədən maarifçiliklə, yeni məktəblərin yaradılmasında ciddi fəaliyyət göstərmişlər. Naxçıvanı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qoruyan naxçıvanlılar, sonralar Naxçıvan Muxtar Respublikasının yaradılmasında da var qüvvələri ilə çalışmışlar. Belə unudulmaz şəxsiyyətlərdən biri də görkəmli siyasi xadim və ensiklopedik alim Mirzə Vahab Həsənzadədir. O, 1919-cu ildən 1934-cü ilədək Naxçıvanın siyasi, iqtisadi və mədəni həyatında fəal iştirak etmişdir .Əvvəlcədən qeyd edək ki, Mirzə Vahab Həsənzadə haqqında onun oğlu filologiya üzrə fəlsəfə doktoru, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi mərhum Turan Həsənzadə, tədqiqatçı alimlər F.Xəlilov və T.Kərimova yazmışlar.Aparılan araşdırmalar göstərir ki, M.V.Həsənzadənin həyatı və fəaliyyətinin açılmamış səhifələri var. Azərbaycanın dövlətçilik tarixində və elmində böyük xidmətləri olan M.V.Həsənzadə az qala unudulmuşdur. Müasir gəncliyin çox az tanıdığı vətənpərvər ensiklopedik alim unudulmağa layiq deyil. Buna görə də əsas məqsədimiz onun həyatını və fəaliyyətini hərtərəfli araşdırmaqdır. Azərbaycanın dövlətçiliyi tarixində onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın xüsusi yeri vardır. Çünki çox mürəkkəb və ziddiyyətli olan 1918-1920-ci illərdə naxçıvanlılar müstəqillik uğrunda qan və can bahasına mübarizə aparmış, həmçinin yadelli işğalçılara qarşı qəhrəmanlıqla vuruşmuşlar. Zəfərlərlə dolu Azərbaycan tarixinin parlaq səhifəsini yaratmışlar.

1918-1920-ci illərdə erməni daşnakları ilə vuruşan və sonralar Naxçıvan Muxtar Respublikasının yaradılmasında fəal iştirak edən Mirzə Vahab Həsənzadə Salman oğlu 1890-cı ildə Ordubad rayonunun Yuxarı Əylis kəndində anadan olmuşdur. Qeyd edək ki, Yuxarı Əylis-Azərbaycanda yaşayış məntəqəsi olmaqla, sənətkarlıq və ticarət mərkəzi kimi orta əsrlərdə məşhur olmuşdur. Yuxarı Əylis kəndi sanki orta əsrlərə aid bir maraqlı tarixi abidələr muzeyidir. O, Arazın sol qolu olan Əylis çayının hər iki sahilində əzəmətli qayalıqlar içərisində yerləşir. Əylis çayı Zəngəzur silsiləsindən (3100 m) başlanan Vardanaxdərə və Dabaxlıdərə çaylarının birləşməsindən əmələ gəlir. Əsasən ipək ticarəti ilə məşğul olan Yuxarı Əylis tacirləri bir çox Şərq və Avropa ölkələri ilə ticarət edirdilər. Tarixi mənbələr təsdiq edir ki, 1752-ci ilədək Əylis adlı şəhər olub. Lakin XVII-XVIII əsrlərdə baş vermiş Səfəvi-Osmanlı müharibələri nəticəsində Əylis dağıdılmış, XIX əsrin sonlarında isə Yuxarı və Aşağı Əylis kəndlərinə ayrılmışdır. Mirzə Vahabın atası Salman kişi Yuxarı Əylisin çox bacarıqlı boyaqçılarından olmuşdur. Maraqlıdır ki, Həsənzadələrin ailələri Şəkiyə köçəndə, ordakı məktəbin də adı "boyaq" mənasını verən ərəbcə "sibqət" sözündəndir. Şəki də öz ipəyi ilə məşhur olduğundan orada belə bir adda məktəb fəaliyyət göstərmişdir. Mirzə Vahab Həsənzadə ilk təhsilini Yuxarı Əylis kəndində almışdır. Amma sonralar, daha doğrusu 1905-ci ildə a tası Salman və anası Zöhrə ilə birlikdə Şəki şəhərinə köçmüşdür. O, 1905-1907-ci illərdə Şəkidəki "Sibqət" məktəbində oxumaqla bərabər, həm də Şəki mədrəsəsində ərəb dilini öyrənib. "Sibqət" məktəbini bitirdikdən sonra təhsilini davam etdirmək üçün Gəncə şəhərindəki ruhani seminariyasına daxil olmuşdur. Aparılan araşdırmalar göstərir ki, M.V.Həsənzadənin seminariyada oxumaqda məqsədi ərəb dilini və islam dininin incəliklərini dərindən öyrənmək olub. O, 1905-1912-ci illərdə Gəncədəki ruhani seminariyasında oxumuşdur. Seminariyada təhsilini davam etdirən Mirzə Vahab Həsənzadə ərəb dilini, fars dilini, ərəb qrammatikasını, məntiq, kəlam, fiqh, üsul, islamiyyət, İslam tarixini, astronomiya, nücum və s. elmləri mükəmməl öyrənməyə nail olmuşdur. Bacarıq və istedadına görə seminariya müəllimlərinin böyük etimad və hörmətini qazanmışdır .


Mirzə Vahab və ailəsi

M.V.Həsənzadə 1912-ci ildə seminariyanı bitirdikdən sonra islamiyyətə aid bir çox fənlərdən Zaqafqaziya "Şeyxül-islam idareyi-ruhaniyyə"sində imtahan verərək diplom almışdır. Seminariyanı bitirən M.V.Həsənzadə Yuxarı Əylis kəndinə qayıtmış, vətən övladlarının maariflındirilməsi, savadlandırılması üçün "Üsuli-cədid" məktəbi təsis etmişdir.Maraqlı haldır ki , onun foto arxivində müəllim işlədiyi həmin illərə aid fotoşəkilləri vardır. Öz ana vətəni olan Yuxarı Əylis kəndində yaratdığı məktəbin müdiri və müəllimi olan M.V.Həsənzadə məktəbə cəlb etdiyi qız və oğlanlara əlifbadan başlayaraq dil, ədəbiyyat, Şərq ədəbiyyatı, fars dili, habelə təbiət, zoologiya, coğrafiya, astronomiya və digər dünyəvi elmlərin əsaslarını öyrədirdi. "Üsuli-cədid" məktəbində təhsil alan qızlar və oğlanlar birbaşa ibtidai sinif müəllimi hüququ alırdılar. Onun yazdığı ərəb dərsliyi üç hissədən ibarətdir: I hissə: "Əldürusül-ibtidaiyyə", II hissə: "Əldürusül-nəhviyyə", III hissə: Nurəddin Əbdürrəhman Caminin "Qəvaidül təyaiyyə" əsəri. Mirzə Vahab Həsənzadənin məktəbində qısa müddətdə təhsil alıb müəllim kimi işləməyə layiq olanları gördükdə hamı onun bacarıq və biliyinə, qabiliyyətinə heyran olaraq "Üsuli-cədid" məktəbini bir "Küpə" oxşadaraq deyirdilər ki, bu müəllimlər Mirzə Vahabın küpündən çıxanlardır. Hətta M.V.Həsənzadə İkinci Dünya müharibəsi illlərində öz evinin yarısını məktəbə verib ki, dərs keçsinlər.

Mirzə Vahab Həsənzadə 1918-1920-ci illərdə Naxçıvan diyarına hücum edən erməni daşnaklarına qarşı mərdliklə vuruşmuşdur. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivində saxlanılan bir sənəddə göstərilir ki, Yuxarı və Aşağı Əylis kəndlərinə köməyə gəlmiş türk döyüşçülərinin komandiri Ədib bəy gənc müəllim M.V.Həsənzadənin döyüş hünərlərindən razıdır. Həm də döyüşçülər M.V.Həsənzadənin evində qalırlar. Buna görə də Ordubadın həmin vaxt pristavı olan Mir Əbülfət ağa (o, türk zabiti Ədib bəylə yola getmirdi) M.V.Həsənzadəni incidir. Türk döyüşçülərinin dostu olan M.V.Həsənzadəni hamının gözü önündə möhkəm döydürür. Bundan xəbər tutan Xəlil bəy və III Kalbalı xan Naxçıvanski , həmçinin Naxçıvanın qubernatoru Cəmillinski Naxçıvanda məsləhətləşirlər. Qərara alırlar ki,


Mirzə Vahab Həsənzadə

geniş səlahiyyətlərə malik bir komissiya yaradılsın və məsələni dərindən araşdırmaq üçün Ordubada ezam edilsin. Yaradılan komissiyaya Əmirov Türkiyə tərəfdaşı kimi, müsavatın nümayəndəsi Mirzə Cabbar Məmmədov və ictimaiyyət adından isə Bəhmən bəy Kazımbəyov daxil edilir. Komissiya Ordubadda məsələni araşdırıb Xəlil bəyə və III Kalbalı xana hesabat təqdim edir. Baş verən hadisələrdə qubernatorun qohumu, pristav Mir Əbülfət ağa günahkar bilinir. Naxçıvana çağrılan pristav səhvlərini etiraf edir və Ordubaddakı qarşıdurma aradan qaldırılmış olur. Əylis kəndini erməni quldur dəstələrindən müdafiə edən qoşunların tərkibində cəsurluqla vuruşan M.V.Həsənzadə 1918-1920-ci illərdə Müsəlman İctimai Siyasi Təşkilatları Milli Şurasının İcraiyyə Komitəsinin katibi olmuşdur. Ordubad Müdafiə Komitəsinin ən fəal üzvlərindən və cəsur döyüşçülərindən biri olan Mirzə Vahab Həsənzadə 1920-ci ildə Naxçıvanda sovet hakimiyyəti qurulduqdan sonra Naxçıvan Maarif Komissarlığının əmri ilə yenidən Yuxarı Əylisdəki məktəbə müdir təyin olunub. M.V.Həsənzadə 1921-1922-ci illərdə Ordubad Qəza İnqilab Komitəsinin sədri, Naxçıvan İnqilab Komitəsinin üzvü olmuşdur. O, 1923-cü ildə Ordubad qəza xalq maarif şöbəsinin müdiri, 1923-cü ildən 1929-cu ilin fevral ayına kimi Naxçıvan ölkə xalq maarif komissarı vəzifəsində çalışmışdır. 8 dekabr 1922-ci ilə aid bir arxiv sənədindəki 167 nömrəli əmrdə deyilir: Ordubad Qəza İnqilab Komitəsinin və Ordubad xalq maarifinin müavini M.Səməndərov işdən azad olunsun və onun yerinə V.Həsənzadə təyin edilsin .

M.V.Həsənzadə Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilmiş və deputatı olmuşdur. Qeyd edək ki, vəzifədə işlədiyi illərdə o, Naxçıvanda və Ordubadda maarifçiliklə ciddi məşğul olmuş, müəllim kadrlarının yetişdirilməsində böyük zəhmət sərf etmişdir. Onun Naxçıvanın Maarif komissarı işlədiyi illərdə imzaladığı çoxlu sayda vəsiqələr arxivdə saxlanır. Hətta burada onun bir çox şəxslərin günahsız olması haqda imzaladığı və möhürlədiyi rəsmi məlumatlar da var. Bütün bunlar bir daha Mirzə Vahabın ən çətin illərdə təmiz və xeyirxah insan olduğunu təsdiqləyir. Arxiv fondlarında onun 1923-1924-cü illərdə həm də müxtəlif məktəblərdə müəllimlik etməsi haqda xeyli sənədlərə rast gəlinir .

25 may 1925-ci ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan şöbəsi yaradıldı. M.V.Həsənzadə bu cəmiyyətə sədr təyin edilir. Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyətinin 1925-1928-ci illər ərzində keçirilən 41 iclasının protokolları Azərbaycan dilində ərəb əlifbası ilə yazılıb.Qeyd etmək yerinə düşər. Həmin protokolları ilk dəfə filologiya elmləri doktoru F.Xəlilov elmi dövriyyəyə daxil etmiş və bu haqda maraqlı kitab yazmışdır(Bax:F.Xəlilov.Naxçıvanı öyrənən elmi cəmiyyət. Baki, 2005). Bu protokollardan aydın olur ki, Mərkəzi Cəmiyyətin nümayəndəsi Məhəmməd Baharlının iştirakı ilə keçirilən birinci iclasda Vahab Həsənzadə sədr, Mirbağır Mirheydərzadə isə elmi katib seçilib. Protokolda qeyd edilib ki, bu cəmiyyətin yaradılmasında məqsəd Naxçıvan respublikasının maddi mədəniyyət abidələrini, etnoqrafiya və tarixini, iqtisadiyyatı və təbiətini ətraflı və planlı şəkildə öyrənməkdir. Naxçıvanı öyrənən elmi cəmiyyətin - Tədqiq və Tətəbbö Cəmiyyətinin iclas protokollarından məlum olur ki, M.V.Həsənzadə bu elmi cəmiyyətə sədrlik etməklə yanaşı, həm də bilavasitə elmi ekspedisiyalarda iştirak etmişdir. Hətta onun Xaraba Gilanda bir arxeoloq kimi qazıntılarda olduğunu təsdiqləyən foto da şəxsi arxivində saxlanılır .Həmin fotonu da oxuculara təqdim edirik.


Yuxarı Əylis XIX əsr

Məşhur tarixçi-arxeoloqlardan V.M.Sısoyevin, A.A.Millerin, İsa bəy Əzimbəyovun və digərlərinin məruzələrinin dinlənilməsi və axtarışların nəticələri Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyətinin diqqət mərkəzində olmuşdur. Bu baxımdan professor A.A.Millerin Qızılvəngin (Qızılburunun) tədqiqi haqqındakı məruzəsinin tarixi əhəmiyyəti böyükdür. Cəmiyyətin sədri M.V.Həsənzadə fəaliyyətə başladığı ilk günlərindən etibarən tarixi abidələrin qorunması məqsədi ilə onların təmir edilməsinə çalışmış və bu işi həmişə diqqət mərkəzində saxlamışdır. Bu dövrdə cəmiyyətin keçirdiyi iclaslarda Naxçıvan şəhərinin Şahab məhəlləsindəki Yusif Kuseyir oğlu türbəsinin, Qala məhəlləsindəki İmamzadə memarlıq kompleksinin, Qarabağlar kəndində olan türbə və qoşa minarələrin təmir və bərpa edilməsi məsələsi qaldırılmışdı. Axtarışlar zamanı məlum oldu ki , Mirzə Vahab ilk dəfə 4 aprel 1925-ci ildə Naxçıvan Diyarının təhqiqi üzrə Xüsusi Komissiyanın iclasında xalq komissarı vəzifəsindən azad edilib və Bakıya MK-nın sərəncamına göndərilib.Səbəb göstəriblər ki, o, öz mənşəyini gizlədib. Ruhani seminariyasında oxumağını qeyd etmişlər (protokol №6). Həmin iclasda M.C.Bağırov,Ə.Qarayev də iştirak ediblər.Amma çox iradəli olan Mirzə Vahab ona atılan böhtanları Bakıda ifşa edərək Naxçıvana qayıtmışdır.

Mirzə Vahab Həsənzadə Naxçıvanda maarif komissarı işləyərkən 1926-1927-ci illərdə ilk dəfə olaraq "Qızıl qələmlər" ədəbiyyat cəmiyyətini yaratmış və həmin cəmiyyətin sədri olmuşdur. Bu haqda protokol №28-də məlumat verilir: 1926-cı il sentyabr ayının 3-də Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyətinin ümumi iclası yoldaş V. Həsənzadənin sədarəti və Ə. Sadıqzadənin katibliyi ilə açılır. İclasda 20 üzv və bir neçə nəfər Azərbaycan Pedaqoji İnstitut tələbələri iştirak edirdilər. Müzakirə olunan 2-ci məsələ haqqında müəllim Ə. Sadıqzadə məruzə edərək Azərbaycan Ədəbiyyat Cəmiyyətinin Naxçıvanda şöbəsini təşkil etməyi təklif edib Nizamnaməsini oxuyur. İclas tərəfindən şöbənin təşkil olunması qəbul olunub. Şöbənin heyəti-rəyasəti 9 nəfərdən ibarətdir:

*1. Mehdi bəy Hacınski*
*2. Vahab Həsənzadə*
*3. Mirbağır Mirheydərzadə*
*4. Qəzənfər Hacılı*
*5. Müəllim Şərif Əfəndizadə*
*6. Əbülfəzl Sadıqzadə*
*7. Məhəmməd Rasizadə*
*8. Rza Paşazadə*
*9. Həsən Səfərli*

Bunlardan sədrliyə Vahab Həsənzadə, katib isə Əbülfəzl (Sadıqzadə) seçilir. M.V. Həsənzadənin foto arxivində ədəbiyyat cəmiyyətinin üzvləri ilə birlikdə maraqlı fotoşəkilləri vardır. Burada adı çəkilən Əbülfəzl Sadıqzadə yazıçı Əvəz Sadıqdır. Qeyd etmək yerinə düşər. 1928-ci ildə "İnqilab və mədəniyyət" jurnalında proletar yazıçılarının birinci qurultayı münasibətilə verilmiş materialların arasında M.V.Həsənzadə sədrlik etdiyi Naxçıvan Ədəbiyyat Cəmiyyətinin üzvlərinin onunla birlikdə fotoşəkil də dərc olunmuşdur.

⇨ Davamı 14-cü səhifədə

# Görkəmli siyasi xadim, tanınmış alim



Türk zabiti Ədib bəy Yuxarı Əylisdə sağdan 1-ci, soldan 2-ci isə Mirzə Vahab 1919 il

⇨ Əvvəli 13-cü səhifədə

M.V.Həsənzadə 1929-cu ildən 1934-cü ilin may ayına kimi Ordubad konserv zavodunun direktoru olmuşdur. O bu zavodda işlədiyi illərdə fəhlələrin yaxşı əmək haqları almalarına çalışmış, hətta buna görə yuxarı təşkilatların tənqidinə də məruz qalıb. Şərq dillərinin mahir bilicisi olan M.V.Həsənzadənin yaşadığı Yuxarı Əylis kəndindəki memarlığı ilə göz oxşayan evində çox zəngin kitabxanası olub. Onun kitabxanasında olduqca zövqlə tərtib edilmiş orijinal kitablar səliqəli yığılırmış. Orada Nadir şahın münşisi və saray tarixçisi olmuş Mirzə Mehdi xan Astrabadinin(Nizaməddin Məhəmməd Hacı əl-Hüseyni əs Səfəvi) "Tarixi-Nadiri(Nadirin tarixi), Mirxondun ən qədim dövrdən on beşinci əsrin sonlarınadək baş vermiş hadisələrdən bəhs edən 7 cildlik ("Rövzət əssəfa fi sirat əl ənbiya vəl-muluk vəl xüləfa"- "Peyğəmbərlər,hökmdarlar xəlifələrin həyatına dair təmizlik bağçası"), Mirxondun nəvəsi Xandəmirin(Xondəmir Qiyasəddin ibn Hümaməddin əl- Hüseyni) "Həbib əssiyər fi əxbar əfrad əl-bəşər"("Görkəmli adamlar haqqında xəbərləri təsvir edən ilk əsər") və digər kitablar vardı. Zəngin bədii ədəbiyyat xəzinəsində Sədi Şirazinin, Hafizin, Nizami Gəncəvinin "Xəmsə"si, Xaqani Şirvaninin, Məhəmməd Füzulinin "Leyli və Məcnun"u, Firdovsinin "Şahnamə"si və digər şairlərin kitabları olmuşdur. Onun nəvəsinin dediyinə görə bu kitabxananı alimin sədaqətli həyat yoldaşı Həlimə xanım qoruyub saxlayırdı.Qədim kitablarla dolu sandıqlar son illərədək M.V.Həsənzadənin Yuxarı Əylisdəki mülkündə qalırmış. Hətta bu kitabxana haqqında akademik Yusif Məmmədəliyevin tədqiqatçıları da yazmışlar. "Mamedaliyev" kitabının (rusca) müəllifi, B.A.Platonov yazır: "Məlum oldu ki, evdə və qonşularda olan kitablar hamısı oxunub. Yusif eşitmişdi ki, Ordubaddan 7-8 km aralı olan Əylis kəndində müəllim Mirzə Əbdülvahab Həsənzadənin zəngin kitabxanası vardır (sonralar Naxçıvanda Sovet hakimiyyəti qurulanda Mirzə Əbdülvahab maarif komissarı işləmişdi). Hər şeyi öyrənmək istəyən gənc müəllimin xoşuna gəldi, onu kitablarla təchiz etdi, ancaq şərt kəsdi: bir-bir götürmək və onlarla səliqəli davranmaq lazımdır". Mirzə Vahab Həsənzadənin zəngin kitabxanasından istifadə edənlərdən akademik Yusif Məmmədəliyevin, Müzəffər Abutalıbın, professor Bəhmən Axundovun, müəllim, ziyalı Əli Qənbərlinin, Həsən Kazımzadənin və bir çoxlarının təhsil görüb yetişmələrində onun böyük xidmətləri olmuşdur .

1934-cü ildə M.V.Həsənzadə Bakıda-Azərbaycan kinofilm trestində işə dəyişdirilib və o, 1935-ci ilin axırınadək burada işləyib. M.V.Həsənzadə həm də poliqlot olmuşdur. O, ərəb, fars, əfqan, tacik, özbək, rus dillərini mükəmməl bildiyindən onu SSRİ Elmlər Akademiyasının Azərbaycan filialına dəvət etmişdilər. 1936-cı ildən orada elmi kitabxananın müdir müavini və akademiyanın Şərq şöbəsinin müdiri vəzifəsində işləmişdir. Bu müddətdə respublika əlyazmaları Fondunun yaradılması və təşkili işində ilk fəaliyyət göstərənlərdən biri olmuşdur. Bu səbəbdən o, tariximizlə və ədəbiyyatşünaslığa aid çoxlu əlyazmaların və qiymətli kitabların toplanması üçün böyük işlər görmüşdür. Mirzə Vahab ərəb və fars dillərini, islamşünaslığı mükəmməl bildiyindən Quranın müxtəlif nəşrlərinin və nadir əlyazmaların toplanması kimi çox xeyirxah və faydalı iş görmüşdür. İndiki M.Füzuli adına Əlyazmalar İnstitutunun yaradılmasında da Mirzə Vahab Həsənzadənin böyük xidmətləri olmuşdur.

Mirzə Vahab Həsənzadə Bakıda işləyərkən İçərişəhərdə, Əli Bayramov küçəsində kommunal mənzildə (25 №-li evdə) akademik Həsən Əliyevlə qonşu olub. Bu iki ailə arasında həm də mehriban dostluq əlaqələri yaranıb. Bu haqda xalq yazıçısı E.Axundova yazır: "Zərifə xanımın atası Mirzə Əbdülvahab Həsənzadə Naxçıvanın məşhur pedaqoqu, Naxçıvan Muxtar Respublikasının ilk xalq maarif komissarı, keçən əsrin 30-cu illərinin sonu, 40-cı illərinin əvvəllərində Azərbaycan Elmlər Akademiyası kitabxanasının direktoru vəzifələrində işləyib. Heydər Əliyevin qardaşı Həsən Əliyev kommunal mənzildə onunla qonşu olub. Onlar İçərişəhərdə, Əli Bayramov küçəsi, 25 nömrəli evdə yaşayır, axşamlar isə bir-birinə qonaq gedərmişlər. Kitabın qəhrəmanı da bura tez-tez baş çəkərmiş. Zərifə xanım o günləri belə xatırlayır: "Atamı yazıçılardan Məmməd Səid Ordubadi, İslam Səfərli, Səməd Vurğun yaxşı tanıyırdılar. Mənzilimizdə bədii qiraət gecələri keçirərdilər. Bəzən Bakıya, qardaşıgilə qonaq gələn Heydər Əliyev də bu tədbirlərdə iştirak edərdi. Heydər Həsən müəllimgilə qonaq gələndə, qardaşlarım nərd oynayardılar. Onu da deyim ki, Heydər uduzmağı xoşlamırdı. Nə olursa olsun, udmalı idi. Yadımdadır, hətta atam qardaşım Rahibə deyirdi: "Yaxşısı budur, sən onu güzəştə get, görmürsən o uduzanda nə günə düşür? Bir gün onlar yenə də oynayırdılar. Oyunu bitirəndən sonra Heydər mənə dedi: "Zərifə, belə otur, şəklini çəkim." Çəkdi. Portret mənim çox xoşuma gəldi. Mən onu aparıb çarpayımın üstündən asdım. Sonra biz Ordubada köçdük, portreti rayona gətirdim. Sonralar onu özümlə albomda gəzdirirdim. Biz Bakıdan Ordubada köçəndə mənə məxsus əşyalarımdan yalnız bu portreti götürdüm. Onu çantamda gizlətdim. O mənim üçün həyatda hər şeydən qiymətli idi. Sonralar hara köçürdümsə, bu şəkli özümlə götürürdüm. Onu cehiz kimi ərimin Ordubaddakı evinə də gətirdim". Ümummilli lider Heydər Əliyevin cavan vaxtlarında böyük ustalıqla çəkdiyi rəsmlərdən biri olan və öz əli ilə yazdığı "Zərifənin şəkli" rəsm əsəri bu gün də çox maraqla nümayiş etdirilir.



Mirzə Vahab Xarabagilanda qazıntıda soldan 1-ci

Mirzə Vahab Həsənzadə 1935-1938-ci illərdə Tarix, Dil və Ədəbiyyat İnstitutunun "Azərbaycan tarixi" şöbəsində kiçik elmi işçi işləyərkən həm də tərcüməçiliklə məşğul olmuşdur. O, Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sini ruscadan, Səədullanın Azərbaycanın tarixindən bəhs edən "Zübdət-ət-Təvarix"ini farscadan, həmçinin Nizamülmülkün "Siyasətnamə"sini, Həmdulla Qəzvininin, Şeyx Fəzlullahın, Mirzə Mehdixanın, Mirxondun, Xandəmirin, Mirzə Məmməd Tağı xanın və digərlərinin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. O, 1937-ci ilin avqustundan dövlət tapşırığını yerinə yetirmək üçün Din Tarixi Muzeyinin açılışı işlərinə cəlb edilmişdir.

1941-ci il dekabrın 19-da Azərbaycan SSR XDİK orqanları tərəfindən "əksinqilabi ədəbiyyatı saxlamaqda" təqsirli bilinərək həbs edilmiş və 5 il müddətinə azadlıqdan məhrum edilmişdir. Mənzilində aparılan axtarış zamanı tapılan kitablar (ərəb əlifbası ilə) "zərərli" olduqlarına görə SSRİ EA Azərbaycan Filialının xüsusi şöbəsinə təhvil verilərək məhv edilməli idilər. Həmin kitabların AzF xüsusi şöbəsinə təhvil verilməsi haqqında özünün qeyd aparmasına baxmayaraq, əslində onlar onun kitabxanasında saxlanılırdı.

Beləliklə, öz həyatı və azadlığı hesabına o nadir əlyazmaları və kitabları məhv olmaqdan xilas etmişdir. Əslində Mirzə Vahabı 1918-1920-ci illərdə erməni daşnaklarına qarşı vuruşduğu üçün sovet çekistləri (ermənilər) mühakimə edir və incidirdilər. Onun foto arxivində 1919-cu ildə Yuxarı Əylis kəndində türk zabiti Ədib bəylə birlikdə şəkli də vardır. Həbsdən sonra Azərbaycana qayıdan Mirzə Vahaba Bakıda və Naxçıvanda yaşamağa icazə vermirlər. 1944-cü il mart ayının 30-dan Azərbaycan Maarif Nazirliyinin əmri ilə Quba iki illik Dövlət Müəllimlər İnstitutuna fars dili və Azərbaycan orta əsrlər ədəbiyyatı müəllimi təyin olunmuşdur. Həmin illərdə o, institutun kitabxanasına həm də müdir təyin edilmişdi. Təqaüdə çıxandan sonra, daha doğrusu 1956-cı ildən sonra ana vətəni Yuxarı Əylisə dönmüş və ömrünün qalan 4 ilini ailəsi və balaları ilə birlikdə keçirmişdir. Qeyd edək ki. Mirzə Vahabla Həlimə xanımın nikahından iki oğlul və qızları olub. Oğlanları Turan və Rauf, qızları Zərifə. Mirzə Vahab və ömür-gün yoldaşı Həlimə xanım öz övladlarını da Azərbaycana layiq böyütmüşlər və onlar ali təhsilli mütəxəssislər kimi fəaliyyət göstərmişlər.Böyük alimin elmi irsinin ,foto arxivinin qorunmasında onun gəlini tarixçi alim Tahirə Həsənzadəyə və nəvəsi istefada olan polkovnik-leytenant Mir Qasım Seyidova minnətdarıq.

Görkəmli siyasi xadim və maarifpərvər ziyalı, böyük alim Mirzə Vahab Həsənzadə 1960-cı il yanvarın 14-də ürəkdən sevdiyi Yuxarı Əylis kəndində vəfat etmiş və orada dəfn olunmuşdur. Ensiklopedik biliyə malik vətənpərvər alim, Naxçıvanı erməni daşnaklarından mərdliklə müdafiə edən Mirzə Vahab Həsənzadə Naxçıvan Muxtar Respublikasının yaradılmasında və inkişafında böyük xidmətlər göstərmişdir.

✍ **Musa Rəhimoğlu (Quliyev)**
*AMEA Naxçıvan Bölməsi tarix üzrə fəlsəfə doktoru*

# "Bakcell" şirkətinin "Ulduzum" proqramının partnyor sayı 300-ü keçib

**Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi "Bakcell" şirkəti böyük məmnuniyyətlə elan edir ki, şirkətin "Ulduzum" loyallıq proqramı çərçivəsində abunəçilərə endirim və əlavə fürsətlər təqdim edən partnyorların sayı 300-ü keçib.**

Qeyd edək ki, öz abunəçilərini eksklüziv endirim və üstünlüklərlə təmin etmək məqsədilə Bakcell ölkənin ən genişmiqyaslı loyallıq proqramlarından birini həyata keçirir. "Ulduzum" proqramı artıq 300-dən çox tərəfdaş vasitəsilə "Bakcell" abunəçilərinə 500-dən artıq satış və xidmət nöqtəsində yüzlərlə maraqlı təklifdən yararlanmaq imkanı yaradır. Proqramın geniş partnyor şəbəkəsinə populyar restoranlar və geyim dükanları, aparıcı kinoteatrlar, elektronika dükanları, tibbi, gözəllik, idman və əyləncə mərkəzləri, banklar, kabel televiziyaları, taksi və beynəlxalq çatdırılma xidmətləri və hətta aviaşirkətlər daxildir.

"Bakcell" 2 il bundan əvvəl özünün "Ulduzum" loyallıq proqramının partnyor siyahısına Türk Hava Yollarının "Miles & Smiles" proqramını daxil edən ilk şirkətlərdən olub. Belə ki, "Ulduzum" istifadəçiləri mobil rabitə xidmətlərinə xərclənən hər 1 manata 3 milə qədər qazanmaq imkanına malikdirlər.

"Bakcell" şirkətinin həyata keçirdiyi "Ulduzum" loyallıq proqramının əsas məqsədi abunəçilərə təkcə endirim və üstünlüklər təqdim etmək yox, onların gündəlik həyatına rahatlıq gətirmək, eyni zamanda loyallıq, etibar və şəffaflıq üzərində qurulmuş münasibətləri möhkəmləndirməkdir.

Hər bir "Bakcell" abunəçisi "Ulduzum" proqramından yararlana bilər. Xüsusi təklif və eksklüziv endirimlərdən faydalanmaq üçün abunəçi xüsusi mobil tətbiqetmə vasitəsilə, telefonda *5555#YES kodunu yığmaqla və yaxud * işarəsini 5555 nömrəsinə SMS vasitəsilə göndərməklə "Ulduzum" kodunu əldə etməlidir. Əldə olunmuş kod alış-veriş və yaxud xidmətlərin ödənilməsi zamanı təqdim edilməlidir. Proqram barədə ətraflı məlumat üçün www.ulduzum.az səhifəsinə daxil olun.

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Kompleks Qazma İşləri Tresti

**Mərkəzləşdirici fənərlərə və sementləmə tıxaclarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26054-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 24.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 31.07.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 (altmış) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 50%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1033, Bakı şəhəri, N.Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105
Kompleks Qazma İşləri Tresti

**Əlaqələndirici şəxs:**
Hüseynov Anar
“Kompleks qazma işləri” tresti, Maddi-texniki təchizat və marketinq şöbəsinin rəis müavini
Telefon: (+99 412) 521-31-59, (+99 450) 842-60-39
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 31.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Kompleks Qazma İşləri Tresti

**Sementlənən pakerə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26052-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifinin təminatı;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 24.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin elektron surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 31.07.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Müsabiqə təklifinin təminatı:***
Müsabiqə təklifinin təminatı, bank qarantiyası formasında iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə, 31.07.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Müvafiq təminatı təqdim edilməyən təklif rədd ediləcəkdir.

Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə sorğu verməlidir.

***IV. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu əldə etmək istəyənlər əlaqələndirici şəxsə iştirak haqqının ödənilməsi barədə bank sənədini və müraciət məktubunu (elektron və ya çap) təqdim etməklə əsas şərtlər toplusunu (elektron və ya çap) Azərbaycan, ingilis və ya rus dilində əldə edə bilərlər.
* Qeyd olunmuş sənədlər elanın I paraqrafında göstərilmiş tarixədək iş günü ərazində saat 09:00-dan 17:30-a kimi təqdim və qəbul edilə bilər.
* İştirak haqqı 236 manat (ƏDV ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutadır və Satınalan təşkilatın aşağıdakı bank hesabına ödənilməlidir:

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***V. Təminatlar:***
* Müsabiqə təklifinin təminatı iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə təminat tələb olunur.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunacaqdır.

***VI. Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 50%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VII. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 120 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***VIII. Satınalan təşkilatın ünvanı:***
AZ1033, Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105.
SOCAR, Kompleks Qazma İşləri Tresti
**Əlaqələndirici şəxs:** Hüseynov Anar.
Maddi-texniki təchizat və marketinq şöbəsi, şöbə rəisinin müavini
Telefon: (+99 412) 521-31-59
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***IX. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***X. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 31.07.2019-cu il tarixində, Bakı vaxtı ilə saat 11:30-da elanın VIII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanda baş tutacaqdır.

***XI. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!
iki sahil Son səhifə 16
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 115 (7370) / Şənbə, 29 iyun 2019-cu il

# Bunları bilmək maraqlıdır...



Yeni mühitdə yatan zaman beyinin yarısı oyaq qalır.
Dəstə halında pul saymağın ruhu sakitləşdirir və güvən hissini artırır.
Bir saat mahnı oxumaq stresinizi azaldar, immun sisteminizi yaxşılaşdırar.
İnsanın beyni ilə qarnı arasında bağlantı var. Bu səbəbdən də həyəcan keçirdiyimiz zaman qarın nahiyəsində ağrı hiss olunur.
Gözlərimiz qapalı olanda aldığımız məlumatı daha tez qavrayırıq.
İnsanların 72%-nin ağlına ən gözəl fikirlər duşdaykən gəlir.
Sosioloqlar belə müəyyən etmişlər ki, insan bioloji varlıq kimi 100-140 il yaşaya bilər.
Əgər ananası ağzınızda uzun müddət saxlasanız, o sizi "yeməyə" başlayır. Ananasın içindəki zülallar əti əridə biləcək qədər qüvvətlidir.
İnsanların 90%-i gecə yatarkən əlini çarpayıdan aşağı sallamaqdan qorxurlar.
Qırmızı və sarı rənglər aclıq hissini yaradır. Buna görə də "Fast Food" markalarının çoxu bu rənglərdən istifadə edir.
İnsanlar bir şeyləri uydurduqlarında yuxarı və sağa doğru baxarlar. Əgər bir şeyi həqiqətən xatırlamağa çalışırlarsa da aşağı və sola doğru baxırlar.
Kədərli olarkən təskinlik üçün daha çox pul xərcləyirik.
Kitab oxumaq beyin hüceyrələrinin ölməsinin qarşısını alır.
İnsanlar fiziki olaraq yorulduqda daha dürüst olmağa meyillidirlər. Buna görə də gec saatlarında edilən söhbətlərdə etiraflar daha tez-tez olur.
Araşdırmaya görə qadınların ortalama sirr tuta bilmə müddətləri 47 saat 15 dəqiqədir.
Gecələr yata bilmirsinizsə kitab oxuyun. Gözləriniz yazıları izləyərkən yorulacaq və bağlanmağa başlayacaq.
İnsanların 47%-nin onlayn söhbətə sərf etdiyi vaxt real həyatdakından daha çoxdur.
Solaryum prosesi dəri xərçənginə tutulma riskini 73% artırır.
Acı bibər dəridə qan dövranını sürətləndirir, nəticədə saçların tökülməsi azalır.
Kompyuter ekranına baxmaq gözü zəiflətməz, sadəcə gözü yorar.
Qadınların gözəlliyini büruzə verdiyi zaman 30-33 yaşlar arasıdır.
Asqırmağı dayandırmağa cəhd etməyə çalışsanız, baş və boyun damarlarınızı zədələyə bilərsiniz.
1 saat saqqız çeynəmək 11 kalori itirməyinizə səbəb olur.
Qulaqcıqdan 1 saat istifadə etmək qulağınızdakı bakteriyaları 700 dəfə artırır.
Telefon uçuş rejimindəykən enerjini daha sürətlə yığır.
Bədəndəki ən qalın dəri daban hissəsində yerləşir və qalınlığı 4 mm-dir.
Gülmək yaddaş tutumunuzu artırır.
Bal xarab olmayan yeganə qidadır.
Yağış zamanı torpaqdan gələn və bir çox insanın sevdiyi qoxuya "petrikor" deyilir.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

# İstirahət günləri hava necə olacaq?




Həftə sonuna gözlənilən hava şəraiti açıqlanıb.
Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Milli.Az-a verilən məlumata görə, Böyük və Kiçik Qafqazda hava şəraitinin yağışlı olacağı gözlənilir. Bəzi yerlərdə yağışın leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Havanın temperaturu dağətəyi rayonlarda 27-32, dağlıq rayonlarda 19-24 dərəcə isti təşkil edəcək.
Lənkəran-Astara bölgəsində iyunun 29-da hava yağmursuz keçsə də, iyunun 30-da arabir yağış yağacağı gözlənilir. Havanın maksimal temperaturu 30-35 dərəcə isti təşkil edəcək.
Aran rayonlarında fasilələrlə yağış yağacaq. Havanın maksimal temperaturu 30-35 dərəcə isti təşkil edəcək.
Naxçıvan MR-da əsasən axşam saatlarında yağış yağacaq. Havanın maksimal temperaturu 29-34 dərəcə isti təşkil edəcək.
Bakıda və Abşeron yarımadasında iyunun 29-u gündüz saatlarından arabir güclənən şimal-qərb küləyinin iyunun 30-da daha da güclü olacağı gözlənilir. Havanın maksimal temperaturu 23-27 dərəcə isti təşkil edəcək.

**Hava sərinləşəcək**

İyun ayının ilk günlərindən davam edən isti hava dalğasının təsiri səngiyəcək.
Bakıda və Abşeron yarımadasında iyunun 29-u axşamdan iyulun 02-si gündüzədək şimal küləyi güclənəcək, iyunun 30-da bəzi yerlərdə daha güclü olacaq. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-10 dərəcə aşağı enəcək.
Azərbaycanın rayonlarında iyunun 29-u axşamdan iyulun 02-dək arabir yağış yağacağı gözlənilir. Bəzi dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi güclənəcək.
Çaylarda sululuğun artacağı, bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi ehtimal olunur.

# Astarada baramaçılığa maraq böyükdür



Astara rayonunda ənənəvi sahə hesab edilən baramaçılığa maraq böyükdür. Mövcud imkanlardan səmərəli istifadə etməklə kümçülər bol məhsul əldə edirlər. Rayonda keçən mövsümdə 700 kiloqram yaş barama tədarük olunduğu halda, hazırda isə ilk mərhələdə bu rəqəm 1, 3 tona çatıb. Əldə olunan məhsul "Azəripək" MMC-yə təhvil verilib. Tədarük olunan yaş baramanın hər kiloqramına görə istehsalçıya dövlət 5 manat subsidiya verir. Qəbul məntəqəsi də 4 manat əlavə olaraq pul ödəyir. Rayonda bundan sonra 200 kiloqram barama istehsal etmək nəzərdə tutulub.

**Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

## ALLAH RƏHMƏT ELƏSİN!

Pirallahıdan Vasif İmanov SOCAR-ın "Azneft" İB-nin baş mühəndisi - baş direktorun birinci müavini Rövşən Qarayevə, qardaşı
**İman Qarayevin**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

SOCAR-ın Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Azərbaycan Respublikası Milli Məclisinin deputatı İqbal Məmmədova, atası
**Nəriman Məmmədovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azəriqaz" İB-nin Təmir-Tikinti İdarəsinin rəisi Vidadi Həsənova, əzizi
**Gövhər xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Azərbaycan Respublikası Milli Məclisinin deputatı İqbal Məmmədova, atası
**Nəriman Məmmədovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti SOCAR-ın "Azneft" İB-nin baş mühəndisi - baş direktorun birinci müavini Rövşən Qarayevə, qardaşı
**İman Qarayevin**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Qaz İxrac" İdarəsinin Tikinti üzrə rəis müavini Hikmət Həsənova, qayınanası
**Gövhər xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Azneft" İB-nin "Abşeronneft" NQÇİ-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azneft" İB-nin baş mühəndisi - baş direktorun birinci müavini Rövşən Qarayevə, qardaşı
**İman Qarayevin**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"EKOL Mühəndislik Xidmətləri" QSC-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi İnzibati təsərrüfat şöbəsinin rəisi Elxan Cənnətalıyevə, atası
**Səməd Cənnətalıyevin**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi: SOCAR
Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV
Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291
TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net
Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88
Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 29.06.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8215
İndeks: 0151, Sifariş: 2032
Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "AzadInform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.